# BAKI UNİVERSİTETİNİN
# XƏBƏRLƏRİ

ВЕСТНИК
БАКИНСКОГО УНИВЕРСИТЕТА

NEWS
OF BAKU UNIVERSITY

SOSİAL-SİYASİ
*elmlər seriyası*

*серия*
СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ НАУК

*series of*
SOCIAL-POLITICAL SCIENCES

№ 3, 2024

Bakı – 2024

*Baş redaksiya heyəti:*

**Babayev E.S.** (baş redaktor), **Kazımzadə A.H.** (baş redaktorun müavini), **Əliyeva İ.N., Məmmədov Y.Ə., Əliyev İ.Ə., Paşayeva N.A., Rəcəbov M.R.** (məsul katib).

*Seriyanın redaksiya heyəti:*

**Məlikova M.F.** (redaktor), **Vahidov F.Q.** (redaktorun müavini), **Hacıyev Z.C.** (məsul katib), **Abbasbəyli A.N., Əhmədov Ə.C., Əliyev B.H., Əlizadə H.Ə., İsmayılov R.R., Məhərrəmov A.M., Qasımov A.M., Məmmədov R.F., Rüstəmov İ.Ə., Əliyev Ə.İ., Həsənalıyev Z.M., Əliyeva K.R.**

**© *Bakı Dövlət Universiteti, 2024***

## HÜQUQ

**UOT 34.347**

# MÜLKİ MƏHKƏMƏ İCRAATINDA BEYNƏLXALQ STANDARTLAR

**S.H.ƏZİZOVA**
***Bakı Dövlət Universiteti***
***sabinaazizova1@gmail.com***

*Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyinin 1.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının məhkəmələrində mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının qaydası Azərbaycan Respublikasının Konstitusiyası, "Məhkəmələr və hakimlər haqqında" Qanunu, Mülki Prosessual Məcəllə və digər qanunlarla yanaşı, həmçinin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilir [1]. Beləliklə, Avropa Şurasının Nazirlər Komitəsinin 15 üzvü tərəfindən 4 noyabr 1950-ci ildə imzalanmış və 3 sentyabr 1953-cü ildə qüvvəyə minmiş "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası milli mülki prosessual qanunvericiliyinin mənbələri sırasına daxildir. Azərbaycan Respublikası tərəfindən 1950-ci il Avropa Konvensiyasını ratifikasiya etməsi, eləcə də Avropa İnsan hüquqları Məhkəməsinin yurisdiksiyasının tanınması kimi qəbul edildi. Bu isə özlüyündə insan hüquq və azadlıqlarının məhkəmə tərəfindən qorunmasının əhəmiyyətini daha da vurğulamış oldu.*

**Açar sözlər:** mülki prosessual qanunvericilik, mülki məhkəmə icraatı, insan hüquqlarının müdafiəsi, ədalətli məhkəmə araşdırması hüququ.

## I. Giriş

Ümummilli lider Heydər Əliyevin 8 iyul 1996-cı ildə "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbirlər haqqında", 20 yanvar 1998-ci il tarixli "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında", 14 may 1999-cu il tarixli "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında" Sərəncamları Avropa Şurası ilə əməkdaşlığın inkişafını təmin etdi [5, s.344-345]. Nəticə olaraq 25 yanvar 2001-ci il tarixində Strasburqda təntənəli mərasimdə Azərbaycan Respublikası Avropa Şurasının

tamhüquqlu üzvü elan olundu, 15 aprel 2002-ci il tarixində isə Avropa Konvensiyası və onun Protokolları Milli Məclis tərəfindən ratifikasiya olundu. Bununla da Azərbaycan Respublikası Avropa Şurasına daxil olan hər bir üzv kimi Avropa Konvensiyasının və onun Protokollarının İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları ilə yaradılan presedent hüququndan irəli gələn mühüm müddəaları öz qanunvericiliyinə daxil etmək öhdəliyini öz üzərinə götürdü.

## II. Ədalətli məhkəmə araşdırması hüququ

Avropa Konvensiyası bir çox baxımdan nadir əhəmiyyətə malikdir: bu, üzv dövlətlər üçün eyni zamanda mütləq olan və geniş spektrdə mülki və siyasi hüquqların qorunması məqsədini daşıyan ilk beynəlxalq sənəddir və iştirakçı dövlətlərin daxilində hüquqların həyata keçirilməsinə nəzarət mexanizmlərini müəyyən edir. Məhz bu səbəbdən Avropa Konvensiyası insan hüquqları sahəsində ən mükəmməl və effektiv beynəlxalq müqavilə kimi qəbul olunur [11]. Avropa Konvensiyasının II bölməsi Avropa İnsan Hüquqları Məhkəməsinə həsr edilmişdir [8].

Azərbaycan Respublikası Avropa Konvensiyasını ratifikasiya edən dövrdən bu mühüm beynəlxalq aktda nəzərdə tutulan hüquqları və əsas azadlıqları təmin etməlidir, o cümlədən məhkəmələr tərəfindən [2, s.29].

Avropa Konvensiyasının preambulasına uyğun olaraq, Avropa ölkələrinin ümumi irsinin əsas elementləri sırasında hüququn aliliyi durur ki, onun da çoxsaylı məqamlarından biri hüquq sistemi çərçivəsində fəaliyyət göstərən müstəqil və qərəzsiz məhkəmələrin rolu ilə bağlıdır. Bu rol Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndində əks olunmuşdur ki, burada işin qanun əsasında yaradılmış tərəfsiz və müstəqil məhkəmə tərəfindən əlverişli müddət ərzində ədalətli və aşkar formada araşdırılmasını təmin etmək üçün ədalət məhkəməsinin aparılması prinsipləri formalaşdırılmışdır.

Məlum olduğu kimi, Konvensiyanı təsdiqləyən zaman dövlətlər öz üzərlərinə ikili öhdəlik götürmüş olurlar: birincisi, onlar Konvensiyanın qoruduğu hüquq və azadlıqların istənilən pozuntularının qarşısını almalıdır; ikincisi, onlar daxili qanunvericiliklərin Konvensiya ilə uyğunluğunu təmin etməlidirlər ki, bunun üçün də bəzi hallarda qanunvericiliyə və hüququn tətbiq olunması təcrübəsinə müəyyən dəyişikliklərin daxil edilməsi tələb olunur.

Ədalətli məhkəmə araşdırması hüququ – "hüquqi mübahisə zamanı, şəxsin rahat bir şəkildə məhkəmə orqanına müraciət edə bilməsi, mübahisə tərəfləri arasında bir ayrı-seçkilik qoyulmadan iddia və etirazların bərabər səviyyədə və həqiqətin müəyyən edilməsini təmin edən şəkildə, qanuni və müstəqil məhkəmə tərəfindən ələ alınması və nəticələndirilməsidir" [7, s. 315; 6, s.125].

Konvensiyanın 6-cı maddəsinə əsasən iştirakçı dövlətlərin üzərinə əda-

lət məhkəməsinin lazımi şəkildə həyata keçirilməsi üçün tələb olunan institutların, eləcə də məhkəmə icraatının ədalətli və qərəzsiz xarakterinə təminat verən qanunların qəbul olunması və həyata keçirilməsi üzrə institutların yaradılması və fəaliyyətinin təmin olunması üzrə öhdəlik qoyulur.

Ədalətli proses o deməkdir ki, məhkəmə bütün prosedurlara düzgün əməl edir və bütün tərəflərə bərabər yanaşır, beləliklə, məhkəmənin qərarından və işin nəticəsindən asılı olmayaraq, məhkəmə prosesinin özü ədalətli və səmərəli olur. Məhkəmələr şəffaf, etibarlı və səmərəli fəaliyyət göstərmədikdə ədalətli məhkəmə araşdırması təmin edilə bilməz. Bu, ədalətli məhkəmə araşdırması hüququnu formalaşdıran və bütün məhkəmələrə şamil olunan fundamental tələbdir.

Ədalətli məhkəmə araşdırması hüquqununu iki qrupa bölmək olar: məhkəməyə olan tələblər və məhkəmə prosesinə olan tələblər. Məhkəmə qanunla yaradılmalı və onun hakimləri müstəqil və qərəzsiz olmalıdır. Məhkəmə prosesi elə təşkil edilməlidir ki, tərəflər məhkəməyə asanlıqla müraciət edə bilsin və məhkəmə prosesində bərabər şərtlərlə tam şəkildə iştirak edə bilsin. Ümumiyyətlə, ədalətli məhkəmə araşdırmasını təmin edən məhkəmələrin yaradılmasına dövlət cavabdehdir. Ancaq məhkəmə yalnız o zaman ədalətli və effektiv ola bilər ki, tərəflər də öz vəzifələrini yerinə vicdanla yetirsin.

Ədalətli məhkəmə araşdırması hüququnun təmin olunması "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasında təsbit olunmuş ədalətli məhkəmə araşdırması hüququnun ayrılmaz hissəsidir. Bununla belə, "insan hüquqları üzrə mövcud olan əsas beynəlxalq sənədlərin mətnində ədalətli məhkəmə hüququnun təmin olunmasının birbaşa göstərilməsi hallarına təsadüf etmək çətindir" və sənədlərdə ona müstəqil prosessual hüquq kimi baxılmır [3, s.25].

Qeyd etmək lazımdır ki, Avropa Şurasının Nəzarət orqanları Konvensiyanın 6-cı maddəsi ilə təmin olunmuş ədalət məhkəməsi və ədalətli məhkəmə araşdırılması hüququnu istənilən demokratik dövlətin əsas əlamətləri qismində qəbul edir və bu əsaslarla bu maddədə əks olunmuş qaydaları həddindən artıq geniş şərh edir. Avropa Konvensiyasının mənasına əsasən ədalət məhkəməsinin həyata keçirilməsi hüququ demokratik cəmiyyətdə elə mühüm yer tutur ki, 6-cı maddənin 1-ci bəndinin məhdud şərh olunması bu müddəanın məqsədinə və mənasına uyğun olmazdı [10, s.82-90]. Analoji fikirləri rəhbər tutaraq, Avropa Şurasının Nazirlər Komitəsi Avropa Şurasının Nizamnaməsinin 15-ci maddəsinə əsasən ədalət məhkəməsinin lazımlı şəkildə həyata keçirilməsi qaydalarına riayət etməklə məhkəmə hüququnun sadələşdirilməsi məqsədlərinə nail olmağa yönəldilmiş tədbirləri nəzərdən keçirir və iştirakçı dövlətlərin hökumətləri tərəfindən qeyd olunan suallar sahəsində vahid siyasətin həyata keçirilməsini təmin edir [8].

## III. Məhkəmə müdafiəsinin əlverişliliyi və müraciətetmə hüququ

Mülki prosesin müasir nəzəriyyəsində məhkəmə müdafiəsinin əlverişliliyi sözün geniş mənasında bir sıra hallarla əlaqələndirilir ki, onlardan ən vacibləri kimi aşağıda qeyd olunanlar qəbul olunur:

- pozulmuş və ya mübahisə olunan hüququn, qanunla qorunan marağın məhkəmə tərəfindən müdafiə olunması üçün məhkəməyə maneəsiz müraciət imkanı;
- işin açılması və aparılması prosedurunun, eləcə də qəbul olunmuş qərarın reallaşdırılmasının sadəliyi;
- məhkəmələrin məhkəmə müdafiəsi üçün müraciət edən şəxslərə ərazi baxımından yaxınlığı;
- dövlət rüsumunun və digər məhkəmə xərclərinin ödənilməsi zaman prosessual güzəştlər sisteminin mövcud olması;
- işin məhkəmədə aparılması zaman hüquqi yardım üçün müraciət etmək imkanı [16, s.28].

Avropa İnsan hüquqları məhkəməsinin Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndinə uyğun olaraq məhkəməyə müdaxilə hüququnu nəzərdən keçirdiyi iki qrup işlər mövcuddur. Birinci qrup milli məhkəmələr və ya inzibati ədliyyə orqanları tərəfindən mülki işlərin bəzi növlərinin baxılması prosesində məhkəməyə müraciət etmək hüququndan imtinaya etirazın edilməsi ilə əlaqədar olan işləri əhatə edir. İkinci qrupa məhkəmələrin hamı üçün əlverişli olmasına baxmayaraq, ağır xərclərin və ya mürəkkəb prosedurların həqiqətdə məhkəməyə müraciəti mümkünsüz etməsi ilə əlaqədar irəli sürülən iradlar aiddir [11, s.204].

Məhkəməyə müraciət hüququnun ehtimal olunan pozulması ilə əlaqədar işlərdə söhbət bir mühüm prinsipdən gedir ki, o, dövlətin müəyyən sahələrdə və ya müəyyən iş kateqoriyalarına aid məhkəmə nəzarətini məhdudlaşdıra və ya ləğv edə bilməyəcəyindən ibarətdir.

Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin məzmununu müəyyən edən digər mühüm prinsip ondan ibarətdir ki, bu və ya digər məhkəmə instansiyasına müraciətetmə hüququ təkcə formal elan olunmalı deyil, həmçinin real, həyata keçiriləbilən olmalıdır. Avropa İnsan hüquqları Məhkəməsi bu prinsipi ədalət məhkəməsinə müraciətetmə hüququnun müxtəlif aspektlərinə aid bir sıra işlərin baxılması zaman tətbiq etmişdir.

Belə ki, "Eyri İrlandiyaya qarşı" işi üzrə qərarda Avropa Məhkəməsi ərizəçinin bir fikri ilə razılaşmışdır ki, onun hüquqlarının müdafiəsi ilə əlaqədar olan məhkəmə araşdırılması üzrə xərclər əslində ədalət məhkəməsinə müraciətetmə hüququnun pozulmasıdır [9].

Belə görünür ki, ədalət məhkəməsinə müraciətetmə hüququnun geniş anlamı tədqiqatın predmetinə ümumilikdə məhkəmə fəaliyyətinin açıqlığını təmin edən digər (yuxarıda qeyd olunanlardan əlavə) aspektlərin də daxil

olunmasını tələb edir.

Onların sırasında aşağıdakıları qeyd etmək olar:

- vətəndaşların və təşkilatların öz hüquqlarının məhkəmədə müdafiə vasitələri haqqında məlumatlılığı;
- mülki işlərin məhkəmə araşdırmasının aşkarlığı;
- yekun məhkəmə qərarlarının əlverişliliyi.

**IV. Pozulmuş və ya mübahisə predmeti olmuş hüquqların məhkəmə müdafiəsinin təmin edilməsi**

Avropa Şurasının mülki işlər üzrə ədalət məhkəməsinin həyata keçirilməsi sahəsində mövcud standartları müəyyən sahələrdə və ya müəyyən işlər kateqoriyaları üzrə məhkəmə nəzarətinin məhdudlaşdırılmasına yol vermir. Hal-hazırda Azərbaycanda məhkəməyə müraciət etmək üzrə bütün məhdudiyyətlər aradan qaldırılmışdır və praktiki olaraq, istənilən hüquqi iş məhkəmə araşdırılmasının predmetinə çevrilə bilər. Lakin məhkəmə müdafiəsi sahəsinin (hazırkı şəkildə) genişləndirilməsi mənfi cəhətlərə də malikdir: o, məhkəmə korpusunun işində əhəmiyyətli yüklənmələrə səbəb olur ki, bu da, təbii olaraq, ədalət məhkəməsinin açıqlığına və effektivliyinə ən mənfi şəkildə təsir göstərir.

Məhkəmə sisteminin təşkil olunması və fəaliyyət göstərməsi haqqında məlumatlılıq. Bir fikir aydın olur ki (o cümlədən, Avropa Şurasının nəzarət orqanları üçün), pozulmuş və ya mübahisə olunan hüquqların real müdafiəsini təmin etmək üçün nəzərdə tutulmuş institutların effektiv fəaliyyəti müstəsna olaraq, işdə maraqlı olan şəxslərin öz hüquqlarının məhkəmədə müdafiə olunması vasitələri haqqında məlumatlı olması şərti ilə mümkündür.

Avropa Konvensiyasının iştirakçısı olan ölkələrə müvafiq tələblər Avropa Şurasının Nazirlər Komitəsinin 14 may 1981-ci il tarixli R (81) 7 saylı "Nazirlər Komitəsi üzv dövlətlərə ədalət məhkəməsinə müraciətin asanlaşdırılması yolları haqqında" Tövsiyəsində şərh olunmuşdur [13]. Tövsiyənin 1-ci bəndinə uyğun olaraq, üzv dövlətlərin səlahiyyətli orqanlarının üzərinə ictimaiyyətin məhkəmələrin yerləşdiyi ünvan və kompetensiyası barədə, eləcə də məhkəməyə müraciət qaydası və ya məhkəmə araşdırılması yolu ilə şəxsi maraqlarının qorunması barədə məlumatlandırılması üzrə, tələb olunan tədbirlərin həyata keçirilməsi öhdəliyi qoyulur. Tövsiyə nəzərdə tutur ki, ümumi xarakterli müvafiq informasiya bilavasitə məhkəmə orqanlarında və ya hər hansı digər səlahiyyətli orqana təqdim oluna bilər. Bu zaman məhkəmə sisteminin təşkil olunması və fəaliyyət göstərməsi haqqında minimal tələb olunan informasiya həcmi aşağıda qeyd olunan məsələləri daxil edir:

- prosessual normalar (bir şərtlə ki, bu informasiya işin mahiyyəti üzrə hüquqi tövsiyyələri daxil etmiş olmasın);
- məhkəməyə müraciət qaydası və müraciətin edilməsi mümkün olan müddətlər;

- prosessual tələblər və bununla əlaqədar olan sənədlər;

- məhkəmə qərarının yerinə yetirilməsi vasitələri və mümkün olduğu təqdirdə, onun yerinə yetirilməsi üzrə məsrəflər [13].

Qeyd edək ki, Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsinin milli qanunvericiliyinin təkmilləşdirilməsinə təsiri var. Məsələn, ailə hüququ kişi və qadın arasında yalnız qanuni şəkildə rəsmiləşdirilmiş münasibətləri nikah kimi tanıyır; Avropa İnsan Hüquqları Məhkəməsi ailə həyatının sosial və mədəni modellərində baş verən müasir dəyişiklikləri nəzərə almaq üçün ailə həyatı anlayışını genişləndirmişdir. "Conston və başqaları İrlandiyaya qarşı" konkret işdə Avropa İnsan hüquqları Məhkəməsi rəsmi nikah münasibətlərində olmayan şəxslər arasında ailə həyatının mövcudluğunu tanıdı. Belə bir qərarın qəbul edilməsində həlledici amil bu şəxslər arasında münasibətlərin sabit olması və onların birgə yaşayışının nikah əsasında qurulan ailə münasibətlərindən fərqlənməmələri olmuşdur [14].

**V. Mülki işlərin məhkəmə araşdırılması prosedurunun sadələşdirilməsi**

Sirr deyil ki, mülki icraat adətən elə mürəkkəb, uzunmüddətli və xərcli xarakter daşıyır ki, maraqlı şəxslər ədalət məhkəməsindən yararlanmaq hüququnun həyata keçirilməsində əhəmiyyətli çətinliklərlə üzləşirlər. Bu səbəbdən də mülki icraatı sadələşdirmək, onu daha elastik və daha operativ etmək, eyni zamanda da, proses iştirakçılarına ənənəvi prosessual normaların təqdim etdiyi zəmanətləri qorumaq tələbi məntiqidir. Məhkəmə prosedurunun ədalət məhkəməsindən rahat yararlanma imkanının yaradılması məqsədinə qulluq edən sadələşdirilməsi müstəsna olaraq ədalət məhkəməsinin demokratik dövlətdə zəruri olan yüksək keyfiyyət səviyyəsinin təmin olunması şərti ilə mümkündür.

Avropa Şurasının Nazirlər Komitəsinin 14 may 1981-ci il tarixli R (81) 7 saylı "Nazirlər Komitəsi üzv dövlətlərə ədalət məhkəməsinə müraciətin asanlaşdırılması yolları haqqında" Tövsiyəsi və 28 fevral 1984-cü il tarixli R (84) 5 saylı "Nazirlər Komitəsi üzv dövlətlərə mülki icraatın məhkəmə sisteminin təkmilləşdirilməsinə yönəldilmiş prinsipləri haqqında" Tövsiyəsi mülki işlərin məhkəmə araşdırması prosedurаlarının sadələşdirilməsi barədə aşağıda qeyd olunan təklifləri daxil edirlər [13]:

- mümkün olan yerlərdə sadələşdirmə və güzəştlərin tətbiq olunması üzrə, tərəflərin barışdırılması və ya mübahisənin icraata qəbul olunmasına qədər və ya məhkəmə araşdırması zamanı danışıqlarla tənzimlənməsi üzrə tədbirlərlərin görünməsi;

- işdə vəkilin iştirakı mübahisənin xarakterindən asılı olaraq vətəndaşların ədalət məhkəməsindən yararlanması üçün imkanın yaradılması məqsədilə onların öz işlərini məhkəmədə şəxsən təqdim etmələri məqsədəuyğun olduqda mütləq olmamalıdır;

- məhkəmə prosesi adətən iki məhkəmə iclasından ibarət olmalıdır: birinci iclas hazırlıq xarakterini daşıya bilər, ikinci iclas zamanı isə sübutlar təqdim olunmalı, tərəflərin dəlilləri dinlənilməli və mümkün olan halda qərar qəbul olunmalıdır;

- tələb olunan prosessual hərəkətləri müəyyən olunmuş qaydada və ya məhkəmə tərəfindən müəyyən olunmuş müddət ərzində yerinə yetirməyən istənilən tərəf barəsində müvafiq sanksiyalar tətbiq olunmalıdır. Hallardan asılı olaraq bu sanksiyalara prosessual hərəkəti yerinə yetirmək hüququndan məhrum etmə, zərərin əvəzini və məsrəfləri ödəmək haqqında qərar, cərimənin müəyyən olunması, ərizənin baxılmadan geri qaytarılması da aid oluna bilər;

- məhkəmə şahidləri çağırmaq, şahidlərin gəlmədiyi halda isə müvafiq sanksiyaları tətbiq etmək imkanına malik olmalıdır (cərimələr, zərərin ödənilməsi şəklində və sair). Şahidin məhkəməyə gəlmədiyi halda məhkəmə onun şahid ifadələrini dinləmədən araşdırmanın davam edilməsi barədə müstəqil qərar qəbul edir;

- əgər məhkəmə tərəfindən təyin olunmuş ekspert iş üzrə öz qərarını təqdim etmirsə və ya onun təqdim olunmasını hər hansı üzrlü səbəb olmadan gecikdirirsə, ona qarşı da müvafiq sanksiyalar tətbiq olunmalıdır. Bu sanksiyalar qonorarın həcminin azaldılmasından, məsrəflərin və vurulan zərərin əvəzinin ödənilməsi haqqında qərarın qəbulundan, eləcə də məhkəmə tərəfindən və ya ekspertin çalışdığı təşkilat tərəfindən intizam tədbirlərinin görülməsindən ibarət ola bilər;

- hər hansı tərəf məhkəmə araşdırması zaman özünü insafsız tərzdə aparırsa və işin araşdırmasını uzatmaq məqsədi ilə proseduru aşkar şəkildə pozursa, məhkəmə mübahisənin mahiyyəti üzrə qərar qəbul etmək səlahiyyətinə malik olmalıdır və ya məsələn, cərimənin tətbiq edilməsi, zərərin ödənilməsi öhdəliyini qoymaq, prosessual hərəkətlərin yerinə yetirilməsi hüququndan məhrum etmək kimi sanksiyaları tətbiq etməlidir;

- iş üzrə yekun qərar məhkəmənin yekun iclasında və ya iclasın başa çatmasından sonra ən qısa müddətdə qəbul olunmalıdır. Qərar mümkün qədər qısa və dəqiq olmalıdır;

- məhkəmə qərarının qəbulundan sonra hüquq müdafiə vasitələrindən sui istifadə hallarının qarşısını almaq üçün müəyyən tədbirlər görülməlidir. Xüsusilə də, şikayət vermək hüququnun qərəzli istifadə olunmamağı üçün barəsində şikayət vermək mümkün olan qərarların müvəqqəti icra olunması imkanına, eləcə də qərarın tam icra olunmasına qədər məhkəmə qərarı əsasında kəsilmiş məbləğ üzrə ödənilən bank faizinə xüsusi diqqət yetirmək lazımdır [13].

**V. Mülki işlər üzrə ədalət məhkəməsinin müəyyən edilən vaxtda həyata keçirilməsi**

14 May 1981-ci il tarixli R (81) 7 saylı "Nazirlər Komitəsi üzv dövlətlərə ədalət məhkəməsinə müraciətin asanlaşdırılması yolları haqqında" Tövsiyəni və 28 fevral 1984-cü il tarixli R (84) 5 saylı "Nazirlər Komitəsi üzv dövlətlərə mülki icraatın məhkəmə sisteminin təkmilləşdirilməsinə yönəldilmiş prinsipləri haqqında" Tövsiyəni qəbul edərkən Avropa Şurasının Nazirlər Komitəsi ondan irəli gəlirdi ki, mülki icraatın üzv dövlətlərdə qəbul olunmuş bəzi norma və prosedurlar müəyyən hallarda ədalət məhkəməsinin effektiv həyata keçirilməsinə maneələr yaradır. Bu cür normalar (prosedurlar) artıq müasir cəmiyyətin tələbatlarına cavab verməyə bilər və ikincisi də, proses iştirakçıları məhkəmə araşdırmasının vaxtını uzatmaq üçün onlardan sui-istifadə edə bilərlər. Bu cür sui-istifadələrin qarşısını almaq üçün məhkəmə qısa zaman ərzində məhkəmə araşdırmasının qarşısını almaq üçün aktiv fəaliyyət göstərməli və bu zaman hüquqlara, o cümlədən, bitərəflik hüququna hörmət etməlidir [13].

Məhkəmə, xüsusilə də aşağıda qeyd olunan səlahiyyətlərə malik olmalıdır:

- lazım bildiyi izahları tərəflərdən tələb etmək;
- tərəflərin məhkəməyə şəxsən gəlmələrini tələb etmək;
- şahidləri dəvət etmək, xüsusən də söhbət işdə iştirak etməyən şəxslərin maraqlarından getdiyi halda;
- şahidlərin ifadələrinin alınması prosesinə nəzarət etmək;
- araşdırmada işə aid olmayan şahidlərin iştirakını ləğv etmək, iş üzrə şahidlərin sayını məhdudlaşdırmaq.

Qanunla digər şərtlərin müəyyən olunduğu hal istisna olmaqla, tərəflərin iddia ərizələri və ya iş üzrə etirazları icraatın mümkün qədər erkən mərhələsində və istənilən halda onun ilkin mərhələsinin başa çatmasına qədər (əgər olarsa) təqdim olunmalıdır. İkinci instansiya məhkəməsində işin şikayət əsasında baxılması zamanı məhkəmə adətən birinci instansiya məhkəməsinə təqdim olunmayan halları nəzərə almır (istisnalar: əgər onlar işə birinci instansiya məhkəməsi tərəfindən baxılan zaman məlum deyildir; onları təqdim edən şəxs birinci instansiya məhkəməsinin iştirakçısı olmamışdırsa, onların tanınması üçün müəyyən xüsusi səbəblər varsa).

Bundan əlavə, 28 fevral 1984-cü il tarixli R (84) 5 saylı Tövsiyədə qeyd olunmuşdur ki, üzv dövlətlər mübahisənin həllini sürətləndirən konkret qaydaları və ya qaydalar məcmusunu hazırlamalıdırlar:

a) təxirəsalınmaz işlər üzrə hallarda;

b) mübahisə olunmayan hüquq ilə əlaqədar hallarda;

c) kiçik məbləğlər üzrə iddialarla bağlı hallarda;

d) ayrı-ayrı iş kateqoriyaları üzrə (yol-nəqliyyat hadisələri, əmək mübahisələri, mənzilin icarədarı və icarəçisi arasında mübahisələrin həllinə dair işlər, ailə hüququnun bəzi məsələləri, xüsusilə də alimentlərin məbləğinin müəyyən olunması və yenidən baxılması ilə əlaqədar işlər) (205).

Bu məqsədlə adətən aşağıda göstərilən tədbirlərin istifadəsi təklif olunur:

- araşdırmanın başlanması üzrə sadələşdirilmiş tədbirlər;
- məhkəmə araşdırmasının iclaslar keçirmədən aparılması və ya yalnız bir iclasın keçirilməsi;
- hallardan asılı olaraq, müstəsna olaraq yalnız yazılı və ya şifahi icraatın həyata keçirilməsi;
- müəyyən etirazların və ya izahların qadağan edilməsi və ya məhdudlaşdırılması;
- ifadələrin verilməsi üzrə daha elastik qaydalar;
- icraatın fasiləsiz və ya çox kiçik fasilələrlə həyata keçirilməsi;
- məhkəmə ekspertinin "ex officio" və ya mümkün olan halda məhkəmə prosesinin başlanmasına qədər tərəflərin xahişi ilə təyin olunması;
- məhkəmənin işin aparılmasında, o cümlədən, şahidlərin çağırılmasında və ifadələrin dinlənilməsində aktiv fəaliyyəti.

**VI. Hakimlərin səriştəsi, müstəqilliyi və qərəzsizliyi**

Ədalət məhkəməsindən yararlanmaq hüququnun mühüm təminatı hakimlərin səriştəsinin, müstəqilliyinin və qərəzsizliyinin, yəni hər bir insanın məhkəməyə öz hüquqlarının qorunması üçün müraciət etdiyi zaman ümid etdiyi peşəkar keyfiyyətlərin təmin olunmasıdır ki, onların reallaşdırılması öhdəliyi Avropa Şurasının üzv dövlətlərinin öhdəliyinə aiddir.

1998-ci il tarixli "Hakimlərin statusu haqqında" Avropa xartiyasının 1.5 bəndinə əsasən hakimlər öhdəliklərini yerinə yetirən zaman minimal olaraq aşağıda qeyd olunan tələblərə cavab verməlidir:

1) onlara müraciət edən şəxslərlə münasibətdə hörmətli və əlçatan olmaq;

2) hər konkret halda işlərin həll olunması üçün tələb olunan yüksək səriştəlilik səviyyəsini qorumağa çalışmaq (10 iyul 1998-ci il tarixli "Hakimlərin statusu haqqında" Avropa xartiyasının 1.5 bəndi).

Hüquqi yardım və hüquqi məsləhətlər. Məlumdur ki, istənilən ölkənin məhkəmə orqanlarında işin aparılması müxtəlif məsrəflərin çəkilməsini nəzərdə tutur (dövlət rüsumunun ödənilməsi, vəkil xidmətlərinin və digər məhkəmə xərclərinin ödənilməsi, məhkəmə girovunun qoyulması və sair). Bu zaman bu məsrəflərin həcmi qeyri-məhdud hüdudlarda dəyişə bilər. Bu hal ən ciddi şəkildə məhkəmə müdafiəsi üçün müraciət hüququnun həyata keçirilməsini çətinləşdirə və ya ümumiyyətlə, mümkünsüz edə bilər.

Beləliklə, Konvensiyanın iştirakçı dövlətləri mülki işlər üzrə ədalət məhkəməsinə müraciət üçün iqtisadi maneələrin aradan qaldırılması məqsədi

ilə zəruri tədbirləri həyata keçirməlidir.

Hesab olunur ki, qeyd olunan məqsədə nail olunmasına məhkəmə məsrəflərinin azaldılması, məhkəmə xərcləri sisteminin sadələşdirilməsi, vəkil və ekspertlərin qonorarlarının həcminə nəzarətin təmin olunması (14 may 1981-ci il tarixli R (81) saylı Tövsiyə), eləcə də hüquqi yardımın müvafiq sistemlərinin mövcudluğu (xüsusilə də xoşagəlməz vəziyyətdə olan şəxslər barəsində) yardım edə bilər. Hüquqi yardımın göstərilməsinin maliyyələşdirilməsi öhdəliyi müstəsna olaraq dövlətin üzərinə düşür.

Mülki işlər üzrə hüquqi yardımın göstərilməsinin əsas prinsipləri Avropa Şurasının Nazirlər Komitəsinin 2 mart 1978-ci il tarixli Hüquqi yardım və konsultasiyalar haqqında Qətnaməsində müəyyən olunmuşdur (Principles of International Civil Procedure. Cambridge University Press, 2005, 75 p.; 205).

Yetkinlik yaşına çatmayanların hüquqlarının və maraqlarının məhkəmə müdafiəsini daha yüksək səviyyədə təmin etmək üçün təklif olunur ki, hər yetkinlik yaşına çatmayan mülki proses içtirakçısına prosesdə onun qanuni nümayəndələrinin, qəyyumluq və himayəcilik orqanının iştirakından asılı olmayaraq pulsuz hüquqi yardım göstərilsin. Bu yetkinlik yaşına çatmayanların cəkişmə prosesində keçirilən müdafiəsinə dəyərli zəmanət ola bilər. Fikrimizcə, hüquqi yardım büdcə hesabına ödənilsə bu bir daha uşaqların hüquqlarının dövlət tərəfindən hərtərəfli müdafiəsinin sübutu olacaq və ümumiyyətlə, Avropa Şurasının Nazirlər Komitəsinin 2 mart 1978-ci il tarixli Hüquqi yardım və konsultasiyalar haqqında Qətnaməsinin tələblərinə cavab verəcək. Bu Qətnaməyə uyğun olaraq, dövlət maddi vəziyyəti zəif olan şəxslərə onların hüquq və maraqlarına aid olan bütün məsələlər üzrə tələb olunan hüquqi konsultasiyanı almaq imkanını təmin etməlidir. Hüquqi konsultasiyalar təmənnasız və ya konsultasiya üçün müraciət etmiş şəxs tərəfindən onun maliyyə imkanlarına uyğun məbləğin ödənilməsi şərti ilə göstərilməlidir.

**VI. Mülki icraatın açıq şəkildə (aşkarlıq prinsipi) həyata keçirilməsi**

Məlumdur ki, açıq məhkəmə baxışı geniş ictimaiyyətin maraqlarına qulluq edir və bununla da ədalət məhkəməsinin həyata keçirilmə şəraitinə etibarı təmin edir. Avropa İnsan hüquqları məhkəməsi bir neçə iş üzrə qət etmişdir ki, aşkarlıq prinsipi Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndində qeyd olunmuş şərtlərdən birinin təhlükədə olduğu təqdirdə (mənəviyyat, ictimai qayda və ya demokratik ölkədə dövlət təhlükəsizliyi, tərəflərin şəxsi həyatlarının müdafiə olunması zərurəti və ya ədalət məhkəməsinin maraqlarının pozulması imkanı) tam şəkildə qorunmalıdır. Yalnız qeyd olunan müəyyən hallarda ictimaiyyət və mətbuat təmsilçiləri məhkəmə iclasının keçiriləcəyi zala buraxılmırlar. Mülki icraatın aşkarlıq prinsipinin qanunvericilikdə müəyyən olunmuş məhdudiyyətləri əksər hallarda yuxarıda qeyd olunan şərtlərə uyğun gəlir.

Son illərdə Avropa İnsan hüquqları Məhkəməsi qəbul etmişdir ki, Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndi ilə müəyyən olunmuş "işin açıq araşdırılması" konsepsiyası ən azı birinci instansiya səviyyəsində şifahi araşdırma hüququnu da əhatə edir [11, s.212]. Bu hüququn pozulması bu və ya digər şəxsin şifahi araşdırmanın aparılması xahişi ilə müraciət etdiyi halda qeydə alınır və bu cür araşdırmanın həyata keçirilməsinə imtinanı əsaslandıra biləcək hər hansı müstəsna hallar mövcud deyil.

**VII. Yekun məhkəmə qərarlarının əlverişliliyi**

Məhkəmə aktlarının əlverişliliyi haqqında məsələ qanunun ədalətli tətbiq olunmasının əsas şərtlərindən biri kimi bütün məhkəmələrin təcrübəsi haqqında tam məlumatlılıq tələbi ilə əlaqədar yaranır. Avropa Şurasının Nazirlər Komitəsi 11 sentyabr 1995-ci il tarixli Nazirlər Komitəsi üzv dövlətlərə hüquqi informasiya-axtarış sistemlərində məhkəmə qərarlarının seçilməsi, işlənməsi, təqdim olunması və arxivləşdirilməsinə dair Tövsiyəsində qeyd etmişdir ki, ədalət məhkəməsinin həyata keçirilməsi üçün məhkəmə təcrübəsi haqqında informasiyanın axtarış sistemlərinin mövcud olması zəruridir.

Avtomatlaşdırılmış axtarış sistemlərinin vəzifələri bu Tövsiyəyə uyğun olaraq aşağıda qeyd olunanlardan ibarətdir:

- hüquqşünasların qısa zaman ərzində tam və dolğun informasiya ilə təmin olunması yolu ilə onların işini asanlaşdırmaq;
- məhkəmə təcrübəsinə bilavasitə və ya dolayı maraq göstərən bütün şəxslərə informasiyanı təqdim etmək;
- yeni məhkəmə qərarları haqqında informasiyanı, xüsusilə də hüququn inkişaf edən sahələrində informasiyanı daha sürətlə yaymaq;
- məhkəmə təcrübəsinin vahidliyinə çalışmaq;
- qanunvericilərə qanunların tətbiq olunması təcrübəsini təhlil etmək imkanını yaratmaq;
- müəyyən hallarda statistika məqsədləri üçün informasiyanı təqdim etmək.

Avtomatlaşdırılmış axtarış sistemlərinin üzərinə qoyulmuş vəzifənin vacibliyini dəyərləndirməmək mümkün deyil. Məhkəmə sisteminin dövlət hakimiyyətinin müstəqil bir qolu qismində təşkil olunması mütləq şəkildə məhkəmə orqanlarının normayaradıcı funksiyasının əmələ gəlməsini nəzərdə tutur ki, bu da öz növbəsində onların qəbul etdikləri aktların dərc olunması (bu və ya digər formada) zərurətini yaradır.

Beləliklə, Avropa Konvensiyasının tətbiq olunması təcrübəsi göstərir ki, barəsində Konvensiyanın müddəalarını pozması haqqında qərarın qəbul edildiyi dövlətlər adətən bu cür pozuntuların aradan qaldırılması üzrə, o cümlədən öz qanunvericiliklərinə dəyişikliklər etmək yolu ilə aradan qaldırılması üzrə tədbirlər görürlər. Belə ki, Almaniyada mülki işlərin araşdırılması

proseslərinin sürətləndirilməsi sahəsində tədbirlər görülmüşdür; İrlandiyada məhkəmə araşdırması proseduru sadələşdirilmiş və hüquqi yardım və konsultasiyalar sistemləri yaradılmışdır; İsveçdə hökümətin qərarlarının məhkəmə qaydasında yenidən baxılması qanunu tətbiq edilmişdir və s. [15 , s.13-14].

Qeyd etməliyik ki, Azərbaycan Respublikasında da Avropa Şurasının mülki icraat sahəsində hüquqi təfəkkürün, qanunverici fəaliyyətin və hüququn tətbiq olunması üzrə təcrübənin mövcud standartları ilə tam uyğun vəziyyətə salınması prosesi davam edir. Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının presedentlərinin düzgün və vahid qaydada tətbiqinin təmini məqsədilə AR Ali Məhkəməsinin Plenumu 2006-cı il 30 mart tarixində xüsusi olaraq 5 saylı qərar qəbul etmişdir [2, s.26-38]. Azərbaycan Respublikasının MPM-nin 16-ci maddəsinə əsasən, dövlətdaxili hüquqi müdafiə vasitələri bitərsə, insan hüquqlarının və azadlıqlarının müdafiəsi üçün beynəlxalq məhkəmələrə müraciət edə bilərlər. Yetkinlik yaşına çatmayanlar da "*ratione persona*" olaraq İnsan hüquqları üzrə Avropa Məhkəməsinə müraciətetmə hüququna malikdilər. Yetkinlik yaşına çatmayanların hüquqlarının Avropa Məhkəməsində müdafiəsi adətən Avropa Konvensiyasının 3, 6, 8, 9 və 14 maddələrinin pozulması ilə əlaqədar olur. Beynəlxalq məhkəmədə işə baxılarkən, bir çox sənədlərdə qərarlanmış Avropa standartları ilə yanaşı BMT-nin 1989-cu il tarixli uşaq hüquqları haqqında Konvensiyaya da istinad olunur. Əksər hallarda Avropa Məhkəməsinə yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi ilə əlaqədar onların valideynləri müraciət edir.

## VIII. Nəticə

Beləliklə, Azərbaycanda müasir mülki prosessual hüququnun tədqiqi göstərir ki, mövcüd Avropa standartları məhkəmə icraatının əsas müddəalarında öz əksini tapıb. Bununla belə qeyd etməliyik ki, üzv dövlətlərin məhkəmələrində işlərə həddindən artıq uzun müddət ərzində baxılmasına dair şikayətlərin sayının artması nəticəsində Avropa Şurası tərəfindən milli məhkəmə sisteminin səmərəliliyinə diqqət artırılmış və 18 sentyabr 2002-ci ildə xüsusi bir orqan - Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) yaradılmışdır. Komissiyanın yaradılmasının məqsədi üzv dövlətlərdə ədalət mühakiməsi sisteminin fəaliyyəti və səmərəliliyinin təkmilləşdirilməsi, habelə bu məqsədlə əlaqədar Avropa Şurası tərəfindən qəbul edilən sənədlərin icrasının təmin olunmasından ibarətdir [4, s.5]. Bu qurumun daxilində Mediasiya üzrə Komitə (CEPEJ-GT-MED) yaradılmış və onun tərəfindən uşaqların ailə mübahisələrinə münasibətdə mübahisələrin alternativ həlli üsullarının istifadəsinə dair xeyli sayda tövsiyələr verilmişdir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. URL: https://e-qanun.az/framework/46945
2. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlar məcmuəsi (1991-2008). - Bakı: Hüquq ədəbiyyatı, - 2008, - 380 s. URL: https://supremecourt.gov.az/az/
3. Avropa Ədliyyə nazirlərinin 28-ci konfransı: "Uşaqların ədalətli məhkəmə hüququnun təmin olumasının bəzi məsələləri: Azərbaycan Respublikasının təcrübəsi" // Qanunçuluq, - 2007, - № 10, - s.25-27
4. Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası: elmi və təcrübi əhəmiyyəti. - Bakı: CBS-PP, - 2016, - 360 s.
5. Əliyev Ə.İ. İnsan hüquqları. - Bakı: Hüquq ədəbiyyatı, - 2013, - 506 s.
6. Mehdiyev F. Nəzəriyyə və təcrübədə insan hüquqları. Dərs vəsaiti. - Bakı: Adiloğlu, - 2009, - 390 s.
7. Şentop M. Avrupa İnsan Hakları Sözleşmesinde Adil Yarqılanma Hakkı //Arqumentum, Temmuz-Aralık, - 1997, - № 53, - s.310-319
8. European convention on human rights and fundamental freedoms, 1950. URL: https://www.echr.coe.int/.../Convention_ENG.pdf
9. European Court of Human Rights: Airey v. Ireland - HUDOC (case N 6289/73, 9.10.79). URL: https:// www.hudoc.echr.coe.int/sites /eng/.../search.aspx?i..
10. Fitzmaurice M., Merkouris P. The Interpretation and Application of the European Convention of Human Rights: Legal and Practical Implications. Martinus Nijhoff Publishers, 2012, 304 p.
11. Gomien D., Harris D., Zwaak A. European Convention for the Protection of Human Rights and Fundamental Freedoms and the European Social Charter: The law and practice. Strasbourg, - 1998, - 902 p.
12. Principles of International Civil Procedure. Cambridge University Press, - 2005, - 75 p.
13. The Committee Ministers of Council of Europe. URL: https://www.coe.int /t/cm/home_en.asp
14. Баркалова Г.И. Соблюдение европейских стандартов в гражданском судопроизводстве. URL: https://cyberleninka.ru/article/n/ soblyudenie-evropeyskih-standartov-v-grazhdanskom-sudoproizvodstve
15. Права человека в международном и внутригосударственном праве / Отв. ред. проф.Р.М.Валеев. - Казань: Казан. гос. ун-т, - 2004, - 300 с.
16. Решетникова И.В., Ярков В.В. Судебная реформа в сфере гражданской юрисдикции в России // Судебная реформа: проблемы гражданской юрисдикции. - Екатеринбург: Гуманитар. Ун-т, - 1996, - с. 20-29.

## МЕЖДУНАРОДНЫЕ СТАНДАРТЫ В ГРАЖДАНСКОМ СУДОПРОИЗВОДСТВЕ

**С.Г.АЗИЗОВА**

**РЕЗЮМЕ**

В соответствии со статьей 1.1 Гражданского процессуального законодательства Азербайджанской Республики, порядок судопроизводства в судах Азербайджанской Республики по гражданским делам и коммерческим спорам устанавливается Конституцией, Законом «О судах и судьях», Гражданско-процессуальным Кодексом, другими законами Азербайджанской Республики, а также международными

договорами, стороной которых выступает Азербайджанская Республика. Таким образом, принятая Комитетом министров Совета Европы 4 ноября 1950 года и вступившая в силу 3 сентября 1953 года Конвенция «О защите прав и основных свобод человека» входим в число источников национального гражданского законодательства. Кроме того, ратификация указанной Конвенции Совета Европы со стороны Азербайджанской Республики является в том числе признанием юрисдикции Европейского Суда по правам человека. Это само по себе еще раз подчеркивает важность судебной защиты прав и свобод человека.

**Ключевые слова:** гражданско-процессуальное законодательство, гражданское судопроизводство, защита прав человека, право на справедливое судебное разбирательство.

**INTERNATIONAL STANDARDS IN CIVIL PROCEEDINGS**

**S.G.AZİZOVA**

**SUMMARY**

In accordance with Article 1.1 of the Civil Procedural Legislation of the Republic of Azerbaijan, the procedure for legal proceedings in the courts of the Republic of Azerbaijan in civil cases and commercial disputes is established by the Constitution, the Law “On Courts and Judges”, the Civil Procedure Code, and other laws of the Republic of Azerbaijan, as well as international treaties to which the Republic of Azerbaijan is a party. Thus, European convention on human rights and fundamental freedoms, adopted by the Committee Ministers of Council of Europe on November 4, 1950 and entered into force on September 3, 1953, is one of the sources of national civil legislation. In addition, the ratification of this Council of Europe Convention by the Republic of Azerbaijan is also recognition of the jurisdiction of the European Court of Human Rights. This in itself once again emphasizes the importance of judicial protection of human rights and freedoms.

**Keywords:** civil procedural legislation, civil proceedings, protection of human rights, right to a fair trial.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Sosial-siyasi elmlər seriyası 2024*

**UOT 34**

# RƏQƏMSAL CƏMİYYƏTDƏ ƏQLİ MÜLKİYYƏT HÜQUQ MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİNƏ DAİR MƏSƏLƏLƏR

**Ə.E.ƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***akbar.e.aliyev@mail.com***

*Məlum olduğu kimi innovasiyaların və texnologiyaların tətbiqinin geniş yayılması, rəqəmsallaşma prosesinin inkişaf dinamikasının çox sürətlə artması, rəqəmsal cəmiyyətin formalaşdığı mühitdə əqli mülkiyyət hüquq münasibətlərinin tənzimlənməsi prosesində meydana çıxan spesifik məsələlər olduqca vacib əhəmiyyətə malikdir. Rəqəmsal cəmiyyətin inkişafı və süni intellekt texnologiyalarının geniş tətbiqi əqli mülkiyyət hüquq münasibətlərinin tənzimlənməsi sahəsində ciddi dəyişikliklər tələb edir. Məqalədə rəqəmsallaşmanın əqli mülkiyyət hüquqlarına, xüsusilə müəllif hüquqları, patentlər və əmtəə nişanlarının qorunmasına təsiri təhlil edilir. Rəqəmsal mühitdə müəllif hüquqlarının pozulması, pirat məhsulların yayılması və süni intellekt tərəfindən yaradılmış əsərlərin hüquqi statusu kimi məsələlər araşdırılır. Həmçinin mövcud milli və beynəlxalq hüquqi çərçivələrin bu problemlərə cavab verə bilmək üçün yetərliliyi qiymətləndirilir. Əqli mülkiyyət hüquq münasibətlərinin tənzimlənməsi və müdafiə mexanizmlərinin sərtliyinin iqtisadi inkişafla qarşılıqlı əlaqəsi də təhlil edilmişdir. Məqalədə əqli mülkiyyət hüquqlarının daha effektiv müdafiəsi və rəqəmsal dövrdə yeniliklərə uyğun tənzimləyici mexanizmlərin formalaşdırılması ilə bağlı təkliflər irəli sürülür. Beynəlxalq əməkdaşlığın və müasir texnologiyalarla uyğunlaşan hüquqi yanaşmaların əhəmiyyəti də xüsusi vurğulanır.*

**Açar sözlər:** Rəqəmsallaşma, əqli mülkiyyət hüquqları, süni intellekt, rəqəmsal cəmiyyət, əqli mülkiyyətin iqtisadi inkişafa təsiri, hüquqi tənzimləmə, innovasiya, informasiya texnologiyaları, innovasiya əsaslı iqtisadiyyat

Rəqəmsal cəmiyyət dövründə texnologiyaların sürətli inkişafı hüquq sahəsində ciddi dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklərdən biri də əqli mülkiyyət hüquqlarının qorunmasında ortaya çıxan yeni çağırışlardır. Müəlliflik hüququndan patentlərə qədər müxtəlif hüquqi məsələlər rəqəmsal mühitdə öz aktuallığını artırmışdır. Azərbaycan Respublikasının qanunvericiliyi də beynəlxalq standartlara uyğun şəkildə rəqəmsal dövrün tələblərinə cavab verməyə çalışır. Odur ki, əqli mülkiyyət sahəsində hüquqi bazanın formalaşdırılması prosesində bu spesifik məsələlərin nəzərə alınması olduqca əhəmiyyətli məsələlərdən biri kimi çıxış edir. Rəqəmsal texnologiyalar əqli mülkiyyət hüquqlarının təminatı və müdafiəsi üzrə münasibətlərə həm müsbət, həm də mənfi istiqamətdə təsir etmişdir. İnternet vasitəsilə məlumatların

sürətli yayılması müəllif hüquqlarının pozulması hallarını artırmaqla, bununla mübarizəyə dair hüquqi mexanizmlərin də effektivliyini azaltmışdır. Rəqəmsal formada olan və ya bu formaya salınmış müəlliflik hüququ obyektləri, xüsusilə elektron kitablar, musiqi əsərləri, filmlər və proqram təminatları tez-tez qanunsuz yükləmə və yayılma ilə üzləşir. Digər tərəfdən, süni intellekt və blokçeyn texnologiyaları əqli mülkiyyət hüquqlarının qorunmasında yeni yanaşmalar təqdim edir. Artıq buna görə də həm hüquqi prosedurların müəyyən olunması, həm də əqli mülkiyyət hüquqlarının təminatı və müdafiəsi ilə əlaqədar məsələlərdə müasir dövrün tələblərinin nəzərə alınması olduqca vacibdir.

Texnoloji inkişaf yeni əqli mülkiyyət obyektlərinin yaranmasını şərtləndirir. Buna misal olaraq süni intellekt, blokçeyn texnologiyaları, NFT-lər (təkraredilməz tokenlər) kimi yeni fenomenlər əqli mülkiyyətə dair hüquqi münasibətlərin təkrar tənzimlənməsini zəruri edir. Süni intellekt vasitəsilə yaradılan əsərlərin mülkiyyət statusu və ya blokçeyn texnologiyası ilə əsərin autentikliyinin təmin edilib-edilməməsi kimi məsələlər bu istiqamətdə mövcud ictimai münasibətlərdə qarşıya çıxan əsas problemlər və ya məsələlər kimi qəbul edilə bilər. Beynəlxalq təcrübə göstərir ki, yeni texnologiyalardan irəli gələn problemlərin tənzimlənməsi üçün qanunvericilik bazası daimi yenilənməlidir. Doğrudur hüquqi tənzimetmə müasir rəqəmsal cəmiyyətdə texnologiyaların, innovasiyaların inkişafına və sosial münasibətlərdə baş verən dəyişikliklərin sürətinə çata bilməz. Hüquqi tənzimləmə və təminat mexanizmləri sadə dillə desək bu məsələlərdə qeyd olunanlardan bir addım geridə qalır. Ümumilikdə əqli mülkiyyət hüquqlarının təminatı və müdafiəsi üzrə sərt hüquqi tənzimetmə də heç də həmişə müsbət nəticələnmir. Əvvəla hüquqi tənzimetmənin sərt olması və məhdudiyyətlərin geniş spektrdə olması texnoloji inkişafın, innovasiyaların tətbiqinin azalmasına, bununla da iqtisadi itkilərə səbəb olur.

Ədəbiyyatda qeyd olunur ki, texnoloji inkişaf sadəcə insan həyatında sadə və asan üsulları təqdim edən sahələri formalaşdırmaqla yanaşı sosial və iqtisadi inkişafa səbəb olan əsas faktorladan biri kimi özünü büruzə verir. İqtisadi inkişaf səviyyəsi inkişaf etmiş ölkələrə çatmayan iqtisadi şəraitdə texnologiyanın mənimsənilməsi yolu ilə sürətli iqtisadi artıma nail olmaq mümkündür. Belə olan halda inkişaf etmiş ölkələr tətbiq etdikləri və üzərində sərt hüquqi müdafiə mexanizmləri tətbiq etdikləri əqli fəaliyyət nəticəsi olan texnoloji yenilikləri ilə digərləri üçün örnək rolunda çıxış edir. Ona görə də texnologiyaların və innovasiyaların mənimsənilməsi ilə, yerli iqtisadiyyatda innovasiya və texnologiyaların yaradılması iki fərqli sahə kimi fərqləndirilir. İnkişaf etmiş ölkələr orijinal olan və sahibi olduqları texnologiya və ya innovasiyanı lisenziya verməklə transfer etməyə daha çox meyl edirlər. Bu onların müvafiq hüquqi tənzimləmələrində də nəzərə çarpır. İnkişaf etməkdə

olan ölkələrdə isə bunun əksinə açılmış filiallar və s. vasitəsilə bu texnoloji yenilik və innovasiyaları tətbiq etməklə daha çox gəlir əldə etmək olur. Mexanizmlərin zəif olması əqli mülkiyyət hüquqları üzərində müstəsna hüquqların təmin və müdafiə olunması məsələsini sual altına qoyur. Ümumilikdə isə əqli mülkiyyət hüquqlarının təminatı və iqtisadi inkişaf arasında qeyri-xətti münasibət özünü büruzə verir. Bu isə ölkənin iqtisadi vəziyyəti, innovasiyaların tətbiqi dərəcəsi və s. ilə əlaqələndirilə bilər [10, 17-18]. Qeyd olunan fikirlə tam razılaşaraq qeyd etmək olar ki, müasir dövrdə, xüsusilə rəqəmsal cəmiyyətin inkişaf etdiyi belə periodda hüquqi tənzimetmənin formalaşdırılması zamanı bu faktorlar mütləq şəkildə nəzərə alınmalıdır. Çünki bu cür hallar nəzərə alınmadan hüquqi tənzimetmənin, müdafiə və təminat mexanizmlərinin formalaşdırılması ölkənin sosial-iqtisadi vəziyyətinə mənfi təsir ilə nəticələnə bilər.

Hüquq ədəbiyyatında qeyd olunur ki, cəmiyyətdə baş verən rəqəmsal transformasiyalar və informasiya texnologiyaların sürətli inkişafı əqli mülkiyyətə dair qanunvericilik aktlarının mövcud münasibətlərə uyğun şəkildə formalaşdırılmasını zəruri edir və qanunverici qarşısında mühüm problemlər ortaya qoyur. İnformasiya cəmiyyətində rəqəmsal inkişaf piratçılıq, əqli mülkiyyət hüquq pozuntularının da xarakterinə təsirsiz ötüşməmişdir. Odur ki, əqli mülkiyyət hüquq münasibətlərində bu cür pozuntularının təbiətinin nəzərə alınaraq qanunvericilikdə hüquq müdafiə və qorunması mexanizmlərinin inkişaf etdirilməsi vacibdir. Bundan əlavə olaraq müasir qanunvericiliklər innovasiyaların tətbiqi imkanlarını məhdudlaşdırılmamalı, bunun əksinə innovasiyaların tətbiqi imkanlarını genişləndirmək üçün əlverişli olmalıdır [7, 62]. Qeyd olunan mövqe mövcud vəziyyəti daha yaxşı şəkildə başa düşməyə imkan verir. Hüquq nəzəriyyəsində qəbul ediləndir ki, münasibətlər onları tənzimləyən normativ mənbələrdən daha sürətlə inkişaf edir. Ona görə də məhz rəqəmsal mühitdə əqli mülkiyyət hüquq münasibətlərini tənzimləyən aktların məzmununu müəyyən edərkən xüsusi diqqətli olmaq lazımdır. Ümumilikdə normativ hüquqi aktların müasir dünya tələblərinə uyğun olması sadəcə əqli mülkiyyət hüquqlarının təminatı baxımından deyil, əqli mülkiyyət hüquq münasibətlərində kommersiya və inzibati məsələlərin tənzimlənməsi baxımından da əhəmiyyətlidir.

Ədəbiyyatda qeyd olunmuşdur ki, artıq əqli mülkiyyətə yanaşmalar dəyişir. Ənənəvi münasibətlərdən fərqli olaraq baş verən dəyişikliklər əqli mülkiyyətə yanaşmaya da təsir göstərən əsas faktor kimi çıxış edir. Səbəb kimi isə texnoloji dəyişikliklər və inkişaf göstərilməlidir ki, burada diqqətçəkən əsas məqam bu inkişafın əqli mülkiyyət ekosisteminə təsiridir. Müasir yanaşmada qəbul edilməli əsas məsələ kimi əqli mülkiyyətin texnoloji inkişafa qarşı deyil, ona uyğunlaşan bir institut kimi qəbul edilməsidir [4, 5]. Göründüyü kimi əqli mülkiyyət və texnologiya cəmiyyətdə bir-biri ilə sıx əlaqədə olan iki fenomen kimi çıxış edir.

Burada diqqət çəkən əsas məqam texnologiya və əqli mülkiyyətin arasında mövcud olan əlaqəsidir. Qeyd olunan fikirlə tam razılaşaraq hesab edirik ki, müasir əqli mülkiyyət hüquq münasibətlərini tənzimləyən qanunvericilik bazası texnologiyaların tətbiqi, transferi və ya kommersiyalaşdırılmasına şərait yaratmalı, eyni zamanda rəqəmsal mühitdə innovasiyaların tətbiqinə əlverişli mühit formalaşdırmalıdır. Yalnız bu üsulla sosial, iqtisadi inkişafa nail olmaq olar.

Ədəbiyyatda qeyd olunur ki, əqli mülkiyyət hüquqları və ölkənin iqtisadi inkişafı U şəkilli funksiyanın şərtlərinə tabedir. Buna görə də əqli mülkiyyət hüquqlarının müdafiəsinə dair tənzimləmələr ölkələrin iqtisadi inkişaf səviyyələrinə görə müəyyən edilir. Əqli mülkiyyət hüquqlarının müdafiə mexanizmlərinin sərtlik səviyyəsi inkişaf etmiş ölkələrdə nə qədər yüksək olsa innovasiyaların tətbiqi və texnologiyaya da o qədər təsir edə bilir. Digər ölkələr də isə bu daha zəif təsirə malikdir [8, 32]. Qeyd etmək olar ki, yüksək inkişaf səviyyəsinə malik ölkələrdə artıq mövcud olan infrastruktur, resurslar və təhsil səviyyəsi əqli mülkiyyət hüquqlarının müdafiəsinin təsirlərini daha effektiv şəkildə tətbiqinə imkan yaradır. İnkişaf etməkdə olan və ya az inkişaf etmiş ölkələrdə isə resurs və infrastrukturun imkanlarının məhdudluğu əqli mülkiyyət hüquqlarının müdafiəsinin mexanizmlərinin innovasiyalara təsirini məhdudlaşdırmaqla daha aşağı səviyyəyə endirir. Belə ki, əqli mülkiyyət qanunvericiliyinin və siyasətinin formalaşdırılması zamanı ölkənin iqtisadi inkişaf səviyyəsi ən mühüm faktorlardan biri kimi nəzərə alınmalıdır. Belə nəticəyə gələ bilərik ki, inkişaf etməkdə olan və az inkişaf etmiş ölkələrin əqli mülkiyyət qanunvericiliyi ilk növbədə elmi-tədqiqat və innovasiya infrastrukturunun yaradılması üçün münbit şəraitin formalaşmasına imkan verməlidir. Güclü əqli mülkiyyət hüququ müdafiəsi mexanizmlərinin formalaşdırılması təkbaşına innovasiya mühiti yarada bilmir, hətta innovasiya və texnologiyanın inkişafının qarşısını alır. Lakin inkişaf etmiş ölkələrdə isə bu özünü əksinə büruzə verir. Yüksək iqtisadi inkişaf səviyyəsinə çatmış ölkələrdə güclü əqli mülkiyyət hüququ müdafiəsi innovasiyaları təşviq edərək texnoloji inkişafını daha da sürətləndirir. Eyni zamanda əqli mülkiyyət hüququnun müdafiəsi ilə texnoloji inkişaf və innovasiyaların tətbiqi iqtisadi artıma da səbəb olur.

Qeyd olunanları vizuallaşdırmaqla izah etmək daha məqsədəmüvafiq olardı. Əqli mülkiyyət hüququnun müdafiəsi və təminatı mexanizmlərinin, habelə tənzimləmənin iqtisadi inkişafa təsirinə dair 1 nömrəli qrafik qeyd olunan münasibətlərdə asılılığı başa düşməyə imkan verir. Ümumilikdə az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə əqli mülkiyyət hüquq münasibətlərində tənzimetmənin və müəyyən olunmuş hüquqi təminat, habelə müdafiə mexanizmlərinin sərtliyi nəticəsində iqtisadi gəlirlilik səviyyəsi azalır. Ona görə də qrafikdən də aydın görünür ki, qırmızı qırıq xəttlə işarələnmiş

ölkənin iqtisadi inkişaf səviyyəsinin optimal dönüş nöqtəsinədək iqtisadi sərtlik azaldıqca iqtisadi inkişaf artmağa davam edir.




**Qrafik 1.**

Lakin ölkələrin iqtisadi vəziyyətinin yaxşılaşması və onların inkişaf etmiş ölkəyə çevrilməsindən sonra əqli mülkiyyət sahəsində mexanizm və tənzimetmənin sərtliyinin artması, nəzarətin güclənməsi zərurəti yaranır. Belə olan halda əqli mülkiyyət hüquq sahibləri və əqli fəaliyyət nəticələrinin yaradıcıların iqtisadi gəlirləri artmaqla yanaşı, ölkənin də iqtisadi gəlirləri sürətlə artmağa başlayır.

Bu məsələdə Çin uğurlu misal və ya nümunə kimi çıxış edə bilər. Çinin əqli mülkiyyət sahəsində hüquqi tənzimləmə və siyasətin inkişaf tarixinə kiçik nəzər yetirməklə rəqəmsal mühitdə əqli mülkiyyətə dair məsələlərin tənzimlənməsinə dair daha məqsədəmüvafiq versiyalarını formalaşdırmaq mümkündür. Ümumilikdə Çinin əqli mülkiyyət siyasəti və əqli mülkiyyət sahəsində tənzimləmələrinə nəzər yetirməklə belə qənaətə gələ bilərik ki, ölkə uğurlu tətbiq edilən tənzimetmə ilə öz iqtisadiyyatını inkişaf etdirməyi, təqlid edən sənayeni orijinal məhsullar yaradan sənayeyə çevirməyi, bununla da inkişaf etmiş əqli mülkiyyət və innovasiya ekosisteminə nail olmağı bacarmışdır.

Hüquq ədəbiyyatında qeyd olunur ki, ötən əsrin yetmişinci illərinin sonlarında Çin dövlət səviyyəsində "açıq qapı" siyasəti qəbul edilmişdir. Bu dövrdən başlayan 30 illik periodda Çin iqtisadiyyatında uğurlu nəticələr əldə olunmuşdur. Beləliklə, Çində planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid edilmiş, mövcud transformasiyaya uyğun tənzimləmələr əqli mülkiyyət siyasətində də dəyişikliyə yol verilmişdir [11, s. 1]. Məhz verilmiş istinaddan da göründüyü kimi ilkin dövrlərdə təqlidə geniş yer verən, əqli mülkiyyət tənzimləmə səviyyəsinə görə zəif göstəricilərə sahib Çin ölkə iqtisadiyyatında inkişaf və nailiyyətlər əldə etdikdən sonra əqli mülkiyyət qorunmasında dünyaya örnək olan dövlətlərdən birinə çevrilmişdir. Bununla yanaşı Çin təqlidə imkan verən ölkədən texnologiya və orijinal əqli fəaliyyət nəticələrinin meydana çıxdığı sənayeyə ev sahibliyi edən dünya nəhənginə çevrilmişdir.

Bu barədə hüquq ədəbiyyatında o da qeyd olunur ki, Çin dövlət siyasətində ictimai münasibətlərdə və iqtisadi vəziyyətdə olan dəyişikliyi dərk edir.

Bununla da həm dövlət, həm də özəl sektor əqli mülkiyyətin daha güclü qorunmasını mövcud reallığın bir parçası kimi anlayır. Buna səbəb kimi isə əqli mülkiyyət hüquqlarının qorunmasının iqtisadi artımına xüsusi diqqət edilir.

Hüquq ədəbiyyatında qeyd olunur ki, texnologiyaların əqli mülkiyyətə təsiri danılmazdır. İnformasiya məkanında rəqəmsallaşma bu sferada əsas obyektlər olan əqli fəaliyyət nəticələrinin də formasına təsir göstərmişdir. Həmçinin əqli mülkiyyət hüquqlarında özünü büruzə verən ərazi məhdudiyyəti prinsipi ilə internet mühitinin sərhədsiz olması xarakteri konflikt və ziddiyətin meydana gəlməsinə səbəb olur. Bu isə əqli mülkiyyətin xaraktercə anlaşılmasında mühüm dəyişikliklər olmasını şərtləndirir. O da qeyd olunur ki, rəqəmli mühitdə hüquq xaraktercə sərt və məhdudlaşdırıcıdır. Bu istiqamətdə əqli mülkiyyətə dair sərt tənzimləmələr rəqəmsal mühitdə əqli fəaliyyət nəticələrinin inkişafının qabağını alar [3, s. 56-57]. Texnologiya və əqli mülkiyyət bir-biri ilə sıx əlaqədə olan iki mühüm fenomen kimi çıxış edir. Bir biri ilə əlqədə olmalarına baxmayaraq əqli mülkiyyət texnologiyaya nisbətdə daha geniş kateqoriya kimi çıxış edir. Qeyd olunanlara dair oxşar elmi yanaşmalara müxtəlif mənbələrdə də rast gəlmək olur.

Ədəbiyyatda qeyd olunur ki, iqtisadi inkişafla bağlı olaraq ilkin mərhələdə ölkələr texnologiya və innovasiyaların təqlidinə imkan yarada bilərlər. Bu məqsədlə əqli mülkiyyət hüquq münasibətlərinin tənzimlənməsi, müdafiə və tətbiq mexanizmləri, habelə bu istiqamətdə dövlət siyasətində bu şəraiti yaratmağa imkan verən yanaşma sərgilənir. Əqli mülkiyyət hüquqlarının zəif qorunması müşahidə olunur. İqtisadi inkişafa nail olduqca və ürəkaçan nəticələr ölkənin iqtisadi göstəricilərini müsbət mənada dəyişməsindən sonra innovasiyaların və texnologiyaların daha geniş tətbiqi məqsədilə əqli mülkiyyət hüquqlarının qorunmasında sərtləşmələrə yol verilməsi zərurəti yaranır. Ölkənin innovasiyaların və texnologiyaların tətbiqində öz yaradıcı məhsullarını meydana çıxarmaqla inkişafa nail olması onun patent göstəricilərinə də əhəmiyyətli təsir göstərir [9, s.4]. Göstərilən fikir bir daha sübut edir ki, ümumilikdə iqtisadi inkişaf səviyyəsinə görə geridə qalan ölkələr məhz ilkin mərhələdə tənzimləmələrində əqli mülkiyyətin daha zəif qorunmasına yol verə bilərlər. Çünki mövcud şəraitdə həmin kateqoriya ölkələrdə əqli mülkiyyətin güclü qorunması ilə paralel şəkildə resurs, infrastruktur, insan kapitalı və sərmayə olmur. Buna görə də əvvəlcə imitasiyalara yol verməklə iqtisadi gəlirlərin artırılması, əldə olunmuş gəlirlərlə səmərəli əqli mülkiyyət və innovasiya ekosisteminin qurulması iqtisadi inkişaf səviyyəsinin artması ilə nəticələnməklə yanaşı, həm də ölkədə əqli mülkiyyətin inkişafına və innovasiyaların daha geniş tətbiqinə rəvac verir.

Rəqəmsal cəmiyyətdə əqli mülkiyyət hüquq münasibətlərini tənzimləyən hüquqi bazanın formalaşdırılması zamanı bir sıra yanaşmalar uğrulu

nəticələr əldə etmək üçün zəmin yarada bilər. Rəqəmsal texnologiyalar sahəsində beynəlxalq təcrübənin öyrənilməsi ilə əqli mülkiyyət hüquqlarının tənzimlənməsi barədə bazanın formalaşdırılması olduqca əhəmiyyətlidir. Bu həm də Azərbaycan Respublikasının əqli mülkiyyətə dair qanunvericiliyinin təkmilləşdirilməsi baxımından da vacibdir. Bu istiqamətdə müəlliflik hüququ qanunvericiliyində süni intellekt vasitəsi ilə yaradılan əqli mülkiyyət obyektlərin statusunun təsbiti olduqca əhəmiyyətlidir.

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununun 4-cü maddəsinə əsasən "müəllif" — əsərin yaradıcısı olan fiziki şəxsdir. Həmin Qanunun 8-ci maddəsinin 1-ci hissəsinə əsasən əsəri yaradan şəxs onun müəllifi sayılır. Əsərə müəlliflik, digər sübutlar yoxdursa, adı altında açıqlanmış şəxsə məxsusdur [5]. Azərbaycan Respublikasının müəlliflik hüququ haqqında qanunvericiliyində süni intellekt vasitəsi ilə yaradılmış əsərlərə dair hüquqi tənzimetmə mövcud deyil. Çünki Azərbaycan Respublikasında da əksər dünya dövlətlərində olduğu kimi müəllif olaraq yalnız fiziki şəxslər qəbul edilir. Ona görə də süni intellekt vasitəsilə yaradılmış əsər müəlliflik hüququ obyektinə şamil olunan tələblərə cavab verirsə belə onun müəllifi kimi süni intellekt nəzərə alına bilməz. Bu istiqamətdə mövcud inzibati praktikada da müəlliflik hüququnu təsdiq edən sənədlərin verilməsi prosesində süni intellekt vasitəsilə yaradılmış əsərlərə dair xüsusi hüquqi tənzimləməyə rast gəlinmir. Bu özünü sənaye mülkiyyətinin obyektləri olan patent obyektlərinin qeydiyyatı və üzərində olan müstəsna hüquqlara dair məsələləri tənzimləyən hüquqi bazada da göstərir [6]. Bu da əslində mühüm bir problem kimi özünü büruzə verir. Çünki bir çox hallarda maşın öyrənməsi üsulu ilə süni intellekt tərəfindən orijinal və yeni, habelə patent qabiliyyətli obyektlərin yaradılması halına rast gəlinir. Belə olsa da, Azərbaycan Respublikasının patent obyektlərinin qeydiyyata alınmasına dair müraciətləri tənzimləyən normativ bazasında süni intellekt tərəfindən yaradılan sənaye mülkiyyəti obyektlərinin iddia sənədlərində fərqli qayda nəzərdə tutan hansısa normaya rast gəlinmir [1]. Bu onunla əlaqələndirilə bilər ki, bu cür texnoloji yeniliklərin istifadə olunma dərəcəsi Azərbaycanda çox da geniş yayılmamışdır. Bununla yanaşı ictimai münasibətlərdə bunun tənzimlənməsi zərurəti özünü çox büruzə vermir. Lakin süni intellekt vasitəsilə yaradıldığı bəyan edilmiş əsərin müəlliflik hüququ və ya patent obyekti kimi qeydiyyatı ilə əlaqədar müraciətin xüsusi tənzimlənməsi zərurəti var.

Bundan əlavə olaraq müasir dövrdə və rəqəmsal cəmiyyətdə əqli mülkiyyət hüquq münasibətlərini tənzimləyən hüquqi bazada blokçeyn texnologiyalarından istifadə etməklə müəlliflik hüquqlarını təmin və müdafiə edən mexanizmlərin tətbiqinin hüquqi əasasını təsbit edən normaların müəyyən olunması olduqca məqsədəmüvafiq olardı. Əksər ölkələrin əqli mülkiyyət

qanunvericiliyində buna rast gəlinmir. Eyni zamanda "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda əqli mülkiyyət obyektlərinin hüquqi müdafiəsi və təminatına dair bir çox mexanizmlər təsbit olunsa da, blokçeyn (zəncir bloku) texnologiyasının tətbiq edildiyi sistemlərdən istifadəyə rast gəlinmir [2]. Buna görə də qanunvericiliyin təkmilləşdirilməsi zamanı bunun nəzərə alınması əqli mlükiyyət hüquqlarının daha effektiv üsulla tənzimlənməsi, təminatı və müdafiəsinə əsas ola bilər. Həmçinin bu istiqamətdə qanunvericilik həm də onlayn platformalarda müəlliflik huququnun qorunmasına dair daha çevik nəzarət mexanizmlərinin tətbiqinə dair hüquqi əsasları da müəyyən etməlidir.

Rəqəmsal cəmiyyətdə əqli mülkiyyət hüquqlarının qorunması bütün ölkələr üçün strateji əhəmiyyət kəsb edir. Rəqəmsal texnologiyaların tətbiqi ilə hüquqi problemlərin yaranmasının qarşısını almaq üçün müasir qanunvericilik mexanizmləri hazırlanmalıdır. Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və yerli qanunvericiliyə inteqrasiya edilməsi mühüm əhəmiyyət daşıyır. Dövlətlərin öz hüquqi sistemində əqli mülkiyyətin rəqəmsal mühitdə qorunmasını gücləndirmək üçün hüquqi bazanın formalaşdırılmasında göstərilənlərin nəzərə alınması ölkənin maraqlarına xidmət etməklə, sosial-iqtisadi inkişafı təmin edir, həm də beynəlxalq səviyyədə dövlətin nüfuzunun artmasına səbəb olur.

Bir sözlə, rəqəmsal cəmiyyətin sürətli inkişafı əqli mülkiyyət hüquq münasibətlərinə ciddi təsir göstərmiş və bu sahədə yeni tənzimləmə mexanizmlərinə olan ehtiyacı artırmışdır. Rəqəmsal texnologiyalar, o cümlədən süni intellekt, blokçeyn və digər innovativ həllər əqli mülkiyyət hüquqlarının qorunması üçün həm yeni imkanlar, həm də problemlər yaratmışdır. Bu, müəllif hüquqlarının qorunmasından tutmuş, patentlərin rəqəmsal mühitdə tətbiqinə qədər geniş sahəni əhatə edir. Azərbaycan Respublikasının qanunvericiliyi əqli mülkiyyətin qorunması sahəsində müəyyən beynəlxalq standartlara uyğun olsa da, rəqəmsal mühitin gətirdiyi yeni çağırışlar qarşısında bəzi boşluqlar və çatışmazlıqlar müşahidə olunur. Xüsusilə süni intellektin məhsullarının müəllifliyi, rəqəmsal piratçılığın qarşısının alınması və rəqəmsal platformalarda hüquq sahiblərinin maraqlarının qorunması sahələrində qanunvericilikdə dəqiqlik və praktik mexanizmlər tələb olunur.

Azərbaycan Respublikasının əqli mülkiyyət qanunvericiliyi beynəlxalq standartlara tam cavab versə də, rəqəmsal cəmiyyətdə yaranmış bu münasibətlərin tənzimlənməsinə dair hüquq normaların da təsbiti olduqca vacibdir. Əqli mülkiyyət hüquqlarının qorunması üçün qanunvericilikdə rəqəmsal məhsulların, süni intellektin yaratdığı əsərlərin hüquqi statusunun dəqiq müəyyənləşdirilməsi, müəllif hüquqlarının rəqəmsal mühitdə effektiv qorunmasını təmin edən normativ hüquqi aktların hazırlanması tələb olunur. Beynəlxalq təcrübənin tətbiqi, xüsusən Avropa İttifaqı, Çin Xalq Respublikası və

ABŞ-ın bu sahədəki təcrübələri Azərbaycan Respublikasının qanunvericiliyin effektiv şəkildə inkişaf etdirilməsi üçün faydalı ola bilər. Ümumilikdə, rəqəmsal cəmiyyətdə əqli mülkiyyət hüquqlarının tənzimlənməsi milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, əqli yaradıcılığın stimullaşdırılması və mədəni irsin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda bu sahədəki islahatlar, qanunvericilik təşəbbüsləri və beynəlxalq əməkdaşlıq, ölkənin hüquqi və iqtisadi inkişafını dəstəkləyəcək əsas amillərdən biri kimi nəzərə alınmalıdır.

Eyni zamanda, yerli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, ictimai maarifləndirmə, rəqəmsal piratçılıqla mübarizə, hüquq sahəsində mütəxəssis hazırlığı və müasir texnologiyaların hüquqi tənzimlənməsi istiqamətində kompleks tədbirlərin görülməsi zəruridir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 noyabr tarixli 437 nömrəli Qərarı ilə təsdiq edilmiş “Patentin alınması barədə iddia sənədinə aid Tələblər”
2. Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu
3. İmanov K, Əqli mülkiyyət innovativ inkişaf kontekstində, - Bakı, - 2020, - 61 s.
4. İmanov K, İnnovasiyalı inkişaf və əqli mülkiyyət hüquqları, - Bakı, - 2022, - 25 s.
5. Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu
6. Patent haqqında Azərbaycan Respublikasının Qanunu
7. Adams R. The Evolution of Intellectual Property Rights in the Digital Age, Journal of Modern Law and Policy, 2023, Vol.3, Issue No.2, - pp 52 – 63.
8. Breitwieser A., Foster N. tellectual Property Rights, Innovation and Technology Transfer: A Survey, - Vienna, - 2012, - 67 p.
9. Chu, A. C., Cozzi, G., & Galli, S. Stage-Dependent Intellectual Property Rights, - 2013, - 35 p.
10. Hassan E., Yaqu O., Diepeveen S. Intellectual Property and Developing Countries A review of the literature, RAND publishing, - 2010, - 70 p.
11. Hong J., Edler J, Massini S. Evolution of the Chinese Intellectual Property Rights System: IPR Law Revisions and Enforcement, Management and Organization Review, Cambridge University Press on behalf of The International Association for Chinese Management Research, - 2022, - 33 p.


## ВОПРОСЫ РЕГУЛИРОВАНИЯ ПРАВООТНОШЕНИЙ В СФЕРЕ ИНТЕЛЛЕКТУАЛЬНОЙ СОБСТВЕННОСТИ В ЦИФРОВОМ ОБЩЕСТВЕ

**А.Э.АЛИЕВ**

**РЕЗЮМЕ**

Как известно, широкое применение инноваций и технологий, а также стремительное развитие процессов цифровизации привели к возникновению специфических вопросов в регулировании правоотношений в сфере интеллектуальной собственности

в условиях формирования цифрового общества. Развитие цифрового общества и широкое применение технологий искусственного интеллекта требуют значительных изменений в регулировании правоотношений в сфере интеллектуальной собственности. В статье рассматривается влияние цифровизации на права интеллектуальной собственности, в частности на защиту авторских прав, патентов и товарных знаков. Также обсуждаются такие вопросы, как нарушение авторских прав в цифровой среде, распространение пиратской продукции и правовой статус произведений, созданных с использованием искусственного интеллекта. Оценивается достаточность существующих национальных и международных правовых рамок для решения этих проблем. Кроме того, анализируется взаимосвязь между регулированием и строгостью механизмов защиты интеллектуальной собственности и их влиянием на экономическое развитие. В статье предложены рекомендации по более эффективной защите прав интеллектуальной собственности и разработке механизмов регулирования, адаптированных к инновациям цифровой эпохи. Особое внимание уделяется важности международного сотрудничества и правовых подходов, соответствующих современным технологиям.

**Ключевые слова:** Цифровизация, права интеллектуальной собственности, искусственный интеллект, цифровое общество, влияние интеллектуальной собственности на экономическое развитие, правовое регулирование, инновации, информационные технологии, инновационная экономика

## ISSUES RELATED TO THE REGULATİON OF INTELLECTUAL PROPERTY LEGAL RELATİONS İN THE DİGİTAL SOCİETY

**A.E.ALİYEV**

## SUMMARY

As is well-known, the widespread application of innovations and technologies, along with the rapid growth dynamics of the digitalization process, has led to specific issues in the regulation of intellectual property (IP) legal relations in the evolving environment of the digital society. The development of the digital society and the extensive application of artificial intelligence technologies require substantial changes in the regulation of IP legal relations. The article examines the impact of digitalization on IP rights, particularly concerning the protection of copyrights, patents, and trademarks. It also addresses issues such as copyright infringement in the digital environment, the proliferation of pirated products, and the legal status of works created by artificial intelligence. Furthermore, the adequacy of existing national and international legal frameworks to address these challenges is evaluated. The article also analyzes the interplay between the regulation and strictness of IP protection mechanisms and their impact on economic development. Proposals for more effective protection of IP rights and the development of regulatory mechanisms adapted to the innovations of the digital age are put forward. The importance of international cooperation and legal approaches aligned with modern technologies is particularly emphasized.

**Keywords:** Digitalization, intellectual property rights, artificial intelligence, digital society, impact of intellectual property on economic development, legal regulation, innovation, information technologies, innovation-based economy

UOT 34.347

# ƏMƏK HÜQUQUNUN MAHİYYƏTİ

**Ü.A.ƏKBƏRLİ**
***Bakı Dövlət Universiteti***
***ulkar.akbarli@gmail.com***

*Məqalədə vətəndaşların sosial-iqtisadi hüquqlarından biri kimi əmək hüququnun mahiyyəti araşdırılaraq qeyd olunur ki, bu hüquq insanın dəyişməz təbiətindən irəli gəlir və yaşamaq hüququ ilə bağlıdır. İnsanın ayrılmaz, təbii hüququ kimi əmək hüququnun əsasını həyat və özünümüdafiə təşkil edir.*

*Əvvəllər ölkəmizdə bazar iqtisadiyyatı prosesi başlanana qədər əmək hüququna əmək müqaviləsi bağlanana qədər təminat verilirdisə, indi ona artıq əmək müqaviləsi bağlandıqdan sonra işçinin ona işəgötürənlə şərtləşdirilmiş işin təqdim edilməsi hüququ şəklində təminat verilir. Konstitusion əmək hüququ vətəndaşların bütün əmək hüquqlarının hüquqi bazasını təşkil edir. Əmək sahəsinə aid konstitusion hüquqların əksəriyyəti subyektiv xarakterlidir. Aparılmış tədqiqat nəticəsində belə bir nəticəyə gəlinmişdir ki, əmək hüququ- bu, hər hansı təminatsız səlahiyyət deyil, hüquq münasibətləri çərçivəsində mövcud olan hüquqdur. Ancaq hüquq münasibətləri kateqoriyası vasitəsilə bu konstitusion hüququn hüquqi təbiətini və sosial əhəmiyyətini açmaq olar. Beləliklə, əmək hüququnu vətəndaşların dövlət tərəfindən təmin edilmiş və təminat verilən, qanunvericilikdə təsbit edilmiş imkan kimi müəyyənləşdirmək olar.*

**Açar sözlər:** əmək, hüquq, əmək hüququ, əmək azadlığı

Əmək hüququnun müxtəlif alimlər tərəfindən tədqiq edilməsinə baxmayaraq [34; 38; 35; 37; 22] hazırda ölkəmizdə siyasi və iqtisadi situasiyasının əsaslı dəyişməsi sayəsində bu problem daha da aktuallaşır. Əmək hüququnun tədqiqinin aktuallığı müasir şəraitdə məzmununu əmək hüququna ənənəvi yanaşma üçün prinsipal olaraq yeni müddəalar təşkil edən Azərbaycan Respublikasının yeni Konstitusiyasının, habelə Azərbaycan Respublikasının yeni Əmək Məcəlləsinin (bundan sonra qısaca olaraq AR ƏM) qəbulu ilə şərtlənmişdir.

Bütün bunlar əmək hüququ və onun realizəsinin səmərəli sisteminin yaradılması nəzəriyyəsinin kök salmış müddəalarının yenidən nəzərdən keçirilməsinin zəruriliyi ilə şərtlənir.

Sosialist nəzəriyyəsində əmək hüququ konsepsiyası əməyin insanın

daxili tələbatı olmasının tanınmasına əsaslanırdı. Bu əməyin ümumiliyi prinsipinin elan olunmasına və nəticə etibarı ilə əmək hüququnun realizəsində məcburiyyətə gətirib çıxartdı. Hesab edirik ki, əmək hüququ insanın əzələ və ya əqli səylərinin məcmusu kimi əməyə olan tələbatına əsaslanmır, hər şeydən əvvəl, yaşamaq hüququ və insanın özünü reallaşdırma hüququ ilə bağlıdır. Yaşamaq hüququndan törəmə olan və özünü reallaşdırma hüququ ilə qarşılıqlı surətdə bağlı olan əmək hüququnun əhəmiyyətini heç bir halda aşağı salmaq olmaz. Başqa sözlə, əmək hüququ insanın ayrılmaz hüququdur və onun mənbəyi qismində həyatın təmin edilməsi və özünü ifadə tələbatı çıxış edir.

Yaşamaq üçün insana qida, geyim, başının üzərində tavan və s. lazımdır. Bütün bu həyati rifahlar insan fərdlərinin onlara əməklə məşğul olmaq və öz həyatlarını təşkil etməyi təmin edə bilən dövləti təşkilinin olmadığı dövrdən etibarən əməyin sayəsində əldə olunur. Beləliklə, əmək hüququ insanın dəyişməz təbiətindən irəli gəlir və yaşamaq hüququ ilə bağlıdır. Məşhur sosial-utopist Şarl Furye hələ XIX əsrin başlanğıcında əmək hüququndan insanın elə bir ilkin hüququ kimi söz açırdı ki, həmin hüquq olmadan bütün qalan hüquqlar mənasını itirmiş olardı: «Biz yüzillikləri insan hüquqları haqqında gülməli mübahisələrdə keçirərək, ən mühüm olanın - mövcud olmadıqda digər hüquqların heç bir dəyərə malik olmadığı əmək hüququnun dərkinin qayğısına qalmamışıq» [29, s.98]. Ş.Furyedən xeyli əvvəl görkəmli alman filosofu Fixte əmək hüququnu əsaslandırmış, onu əbədi olan, insana təbiət tərəfindən verilmiş hüquq kimi nəzərdən keçirmişdir [29, s.88].

İnsan dərrakəli varlıqdır, onun üçün minimum qida, geyim, sadəcə olaraq başı üzərində tavan kifayət deyil. Onun təbiətində nəinki yaşamaq instinkti, həmçinin həyat tərzinin yüksəlişi mənasında və bir şəxsiyyət kimi təkmilləşməyə daim cəhd vardır.

Beləliklə, demək olar ki, əmək hüququ onun həyata keçirilməsi hüququ ilə bağlıdır. Bu planda az tanınan kiçik burjuaziya utopisti Karl Marlo təxəllüslü K.Q.Vinkelblexin əmək hüququ ilə bağlı fikri çox maraqlıdır. "İnsanın nəinki sadəcə olaraq əmək hüququ, eləcə də ən məhsuldar əmək hüququ vardır, yəni onun nəinki öz fiziki tələbatına, eləcə də bunların daha tam təmin edilməsinə nail olmaq hüququ vardır". O, daha sonra fikrini davam etdirərək yazır: "Daha tam inkişaf etmiş şəxsiyyətin mümkünlüyü" haqqında danışmağa dəymir. Belə ki, insan nəinki əmək hüququ, eləcə də ən nəticəvi əmək hüququ tələb edir, yəni elə bir əmək ki, onun ödənilməsi sənayenin tərəqqisi ilə birlikdə artır və daimi olaraq yüksəkdir" [29, s.104-105].

Yuxarıda göstərilənlərdən belə bir nəticəyə gəlmək olar ki, K.Marlo əmək hüququnu şəxsiyyətin daha tam inkişafı ilə əlaqələndirir. Nəticədə bu müddəa marksizm-leninizm baniləri və onların ardıcılları tərəfindən inkişaf

etdirilmişdir. Onlar hesab edirdilər ki, ancaq əməyin istismardan azad olunduğu sosializm şəraitində əmək şəxsiyyətin özünü realizəsinə kömək edir [30, s.305].

Təəssüf ki, bu nəzəriyyə həyatda öz təsdiqini tapmadı. Qeyd etməliyik ki, sosializimdə də insanın az da olsa istismarı mövcud idi və burada əmək, ancaq yaşamaq üçün ödənilirdi. O, realizəsi üçün dövlət məcburiyyətindən istifadə olunan hüquqa çevrildi. Bizim fikrimizcə, bu ona görə baş verdi ki, əməyin həyata keçirilməsi üzrə nəzəriyyədə olduğu kimi siyasətçilərin fəaliyyətinin əsasını insanların həqiqi tələbatları deyil, əməkçi xalqın maraqları, işıqlı gələcəyin qurulması üzrə vəzifələr, yaxud da yuxarı idarəedici orqanın maraqları kimi mücərrəd kateqoriyalar təşkil edirdi.

Bu gün doqmalardan yaxa qurtarmaq üçün əsas insan hüquqlarından biri olan əmək hüququnun yenidən dərk edilməsinin vaxtı gəlmişdir. İnsanın ayrılmaz, təbii hüququ kimi əmək hüququnun əsasını həyat və özünüifadə təşkil edir. Lakin əmək hüququnun "təbiiliyi" və ayrılmazlığı üzərində dayanmaq həyata keçirilməyən bəyannamələrlə bərabərdir. Müasir cəmiyyətdə bu hüququn real həyata keçirilməsi üçün dövlətin qanunların qəbulunda ifadə olunan və onun realizəsini təmin edən gücü zəruridir.

1936-cı ildə SSRİ Konstitusiyasının qəbul edilməsi ilə əmək hüququ ilk dəfə olaraq vətəndaşın konstitusiya hüququ səviyyəsinə qaldırıldı. Onda əmək hər bir əmək qabiliyyətli vətəndaşın vəzifəsi və şərəf işi elan olunur və sosializmin «hər kəsdən qabiliyyətinə görə, hər kəsə əməyinə görə» prinsipi bəyan olunurdu (maddə 12). Konstitusiyanın 118-ci maddəsi SSRİ vətəndaşlarına əmək hüququ, yəni onların əməyi onun kəmiyyətinə və keyfiyyətinə müvafiq surətdə ödənilməklə təminatlı iş almaq hüququ verirdi.

Daha sonra həmin maddədə əmək hüququnun həyata keçirilməsinin «əmək hüququnun istinad etdiyi və istinad edə biləcəyi əsas olan» iqtisadi (maddi) təminatları sadalanırdı. Beləlilklə, əmək hüququ xalq təsərrüfatının sosialist təşkili, sovet cəmiyyətinin məhsuldar qüvvələrinin durmadan artması, təsərrüfat böhranı imkanının aradan qaldırılması və işsizliyin ləğvi ilə təmin olunurdu.

Əmək hüququ Azərbaycan SSR-in 10 dekabr 1971-ci il Əmək Qanunları Məcəlləsində (bundan sonra qısaca olaraq Azərb.SSR ƏQM) və Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında (Əsas Qanunu) daha da inkişaf etdirildi. Azərb. SSR ƏQM-ə əmək hüququnu təsbit edən 2-ci maddə daxil edilmişdi. Əvvəlki Konstitusiya ilə müqayisədə əmək hüququnun məzmunu Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında xeyli genişləndirilmişdi. Belə ki, həmin Konstitusiyanın 38-ci maddəsində deyilirdi ki, Azərbaycan SSR vətəndaşları əmək hüququna, yəni əməyin kəmiyyətinə və keyfiyyətinə uyğun olaraq və dövlət tərəfindən müəyyən edilmiş minimum məbləğdən aşağı olmamaqla haqqı ödənilən təminatlı iş almaq hüququna, o

cümlədən həvəsinə, qabiliyyətinə, peşə hazırlığına, təhsilinə münasib olaraq və ictimai tələbat nəzərə alınmaqla, peşə, məşğuliyyət növü və iş seçmək hüququna malikdirlər.

Bu hüquq sosialist təsərrüfat sistemi, məhsuldar qüvvələrin durmadan artması, pulsuz peşə təlimi, əmək ixtisasının artırılması və yeni ixtisasların öyrədilməsi, peşə seçməkdə istiqamətləndirmə və işə düzəltmə sistemlərinin inkişaf etdirilməsi ilə təmin olunur [4, s.15].

Analoji norma SSRİ-nin 1977-ci il Konstitusiyasının (Əsas Qanunu) 40-cı maddəsində də təsbit olunmuşdur [11, s.17].

Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyasının 58-ci maddəsi müəyyən edirdi ki, ictimai faydalı fəaliyyət sahəsində vicdanla işləmək, əmək intizamına əmək etmək Azərbaycan SSR-in əmək qabiliyyətli hər bir vətəndaşının borcu və şərəf işidir. İctimai faydalı əməkdən boyun qaçırmaq sosializm cəmiyyəti prinsipləri ilə bir yerə sığmır [4, s.21]. Qeyd olunmalıdır ki, verilən təriflərdə vurğu məhz işləmək vəzifəsinin mənəvi xarakterinin üzərinə salınırdı. Bu, o səbəbdən baş vermişdi ki, SSRİ hələ 1956-cı il iyunun 4-də BƏT-nin «Məcburi və yaxud icbari əmək haqqında» 29 nömrəli Konvensiyasını (1930), 1976-cı ildə isə 1966-cı il dekabrın 16-da qəbul edilmiş İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktı təsdiqləmişdi.

Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyasında əmək hüququnun müəyyən edilməsi ölkə hüquqşünaslığında əmək hüququ nəzəriyyəsinin sonrakı inkişafına təsir etdi. Əməyin belə geniş xarakteristikası sosializimdə əmək azadlığı prinsipini əks etdirirdi. Lakin seçim imkanlarının sadalanması (peşə, məşğuliyyət növü və iş seçmək hüququ) o qədər də uğurlu deyildi. Belə ki, burada əmək funksiyasının müəyyənliyinin müxtəlif səviyyələri müxtəlif mənalı terminlərdə istifadə olunurdu. Konstitusiyanın bu maddəsi insan hüquqları üzrə beynəlxalq-hüquqi sənədlərdə əmək hüququnun şərhinə yaxın idi. Belə ki, İnsan hüquqları haqqında Ümumi Bəyənnamənin 23-cü maddəsində göstərilirdi ki, hər bir şəxsin əmək, sərbəst iş yeri seçmək, ədalətli və münasib əmək şəraiti və işsizlikdən müdafiə hüququ var [8, s.6]. BMT-nin Baş Assambleyası tərəfindən 16 dekabr 1966-cı ildə qəbul olunmuş və 18 sentyabr 1973-cü ildə qüvvəyə minmiş İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 6-cı maddəsinin birinci hissəsində deyilir ki, bu Paktda iştirak edən dövlətlər hər kəsin azad seçdiyi və ya könüllü razılaşdığı işlə həyatını təmin etmək hüququnu əhatə edən əmək hüququnu tanıyırlar və bu hüququn təmin olunması üçün müvafiq addımlar atacaqlar [7, s.5].

18 oktyabr 1961-ci ildə qəbul olunmuş və 1965-ci ildə qüvvəyə minmiş Avropa Sosial Xartiyasında qeyd edilir ki, hər bir insan sərbəst şəkildə seçdiyi ixtisas üzrə öz zəhməti ilə yaşayış üçün qazanc əldə etmək imkanına malik

olmalıdır [2, s.3].

Avropa Sosial Xartiyasının 2-ci hissəsinin birinci maddəsi əmək hüququna həsr olunmuşdur. Onda dövlətlərin əmək hüququnun səmərəli həyata keçirilməsini təmin etmək üzrə öhdəlikləri ifadə olunur:

1) tam məşğulluğun əldə olunması məqsədilə mümkün qədər yüksək və sabit məşğulluq səviyyəsinə nail olunmasını və onun saxlanılmasını öz əsas məqsəd və öhdəliklərindən biri kimi qəbul etmək;

2) işçinin sərbəst seçdiyi iş vasitəsilə öz yaşayışı üçün qazanc əldə etmək hüququnu səmərəli qorumaq:

3) bütün işçilər üçün pulsuz məşğulluq xidmətlərini yaratmaq və ya saxlamaq;

4) müvafiq peşə yönümünü, hazırlığı və bərpasını təmin etmək və ya inkişaf etdirmək [2, s.3].

Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyasının 38-ci maddəsindən fərqli olaraq Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyasının 35-ci maddəsində əmək hüququ kifayət qədər dəqiq təsbit olunmuşdur. Burada söhbət təminatlı iş almaqdan deyil, öz əmək qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququndan gedir. Bundan başqa, seçim azadlığı ictimai tələbatların nəzərə alınmasının zəruriliyi ilə məhdudlaşmır. Beləliklə, aydındır ki, AR Konstitusiyasında əmək hüququnun şərhi Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyasının 38-ci maddəsində göstərilən müddəadan fərqli olaraq əməyin azadlığı prinsipinə daha çox uyğundur. Lakin qeyd etmək lazımdır ki, ilk nəzərdə əmək hüququnun realizəsinin təminatının səviyyəsi aşağı düşmüşdü. Belə ki, dövlət hər bir vətəndaşa işin verilməsi ilə bağlı təminat vermir. Bunun əsasında vətəndaşların vəziyyətinin pisləşməsi nəticəsinə gəlmək olar. Lakin bizə belə gəlir ki, burada birmənalı nəticəyə gəlmək olmaz. Həqiqətən də vətəndaşların vəziyyətində stabillik o qədər də möhkəm deyildi. Belə ki, işsizlik onunla birgə isə is yerini itirmək təhlükəsi meydana gəlmişdi. Lakin stabiliyin yerini o qədər də ziddiyyətsiz olmayan azadlıq tutdu.

Ancaq əməyin tam azadlığı şəraitində azad əmək hüquq münasibətləri haqqında söhbət gedə bilər. Bu zaman iş yerinin saxlanması təminatı yüksək ixtisaslığa şərait yaradacaq, işin itirildiyi halda isə dövlət köməyi olacaq. Bu planda işsizlikdən müdafiə olunmaq hüququnun təsbiti əmək hüququnun anlayışına daha çox şüar yanaşmasından üstündür.

AR-in 1995-ci il Konstitusiyası əmək hüququnun SSRİ-də hökmran olmuş konsepsiyasından imtina edərək onun tərifini İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın vurğunun əməyin azad və könüllü xarakterinin üzərinə salındığı 6-cı maddəsinə əsaslanmağa başlamışdır. Yeni ifadə özünün əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququnu, hər kəsin təhlükəsiz və

sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququnu, eləcə də işsizlikdən müdafiə hüququnu ehtiva edir. AR Konstitusiyasının 35-ci maddəsi əmək azadlığını, həmçinin məcburi əməyin qadağan edilməsi prinsipini təsbit etmişdir.

V.S.İvanenko göstərir ki, əmək azaddır, buna görə də dövlət onun təmin edilməsi üzrə öhdəliklərdən azaddır [24, s.18].

M.V.Baqlay hesab edir ki, əmək hüququ kiminsə bütün tələb edənlərə iş vermək vəzifəsini bildirmir. Bazar iqtisadiyyatında dövlət xüsusi sahibkara belə vəzifə tapşırmaq və ya bu öhdəliyi öz üzərinə götürmək iqtidarında deyil. Çünki o, artıq bütün müəssisələri idarə etmir [15, s.230].

Qeyd etmək lazımdır ki, xarici dövlətlərin konstitusiyalarında nəzərdən keçirilən məsələyə dair fərqli yanaşmalar mövcuddur.

Bir sıra dövlətlər əmək hüququnun və işləmək vəzifəsinin vahidliyini birbaşa təsbit edirlər. Belə ki, 1976-cı il 2 aprel tarixli Portuqaliya Konstitusiyası 58-ci maddədə hər kəsin əmək hüququnu bəyan edir və müəyyən edir ki, işləmək vəzifəsi əmək hüququndan ayrılmazdır. Yalnız əmək qabiliyyətini qismən, yaxud tamamilə itirmiş şəxslər bu qaydadan istisna təşkil edirlər. Bundan başqa, əmək hüququnun realizəsinin dövlət təminatları təsbit olunur:

1) tam məşğulluq siyasətinin yeridilməsi;

2) hər hansı vəzifənin, işin və peşənin verilməsi üçün cinsi əsas götürən qadağan və məhdudiyyətlər olmadan peşə, yaxud əmək fəaliyyəti növü seçimində imkan bərabərliyi;

3) zəhmətkeşlərin mədəni, texniki və peşə hazırlığı.

Fransa Respublikasının 1946-cı il Konstitusiyasının preambulasında göstərilir ki, hər kəs işləməyə borcludur və məşğuliyyət almaq hüququna malikdir. 1978-ci il dekabrın 29-da qüvvəyə minmiş İspaniya Konstitusiyasının 35-ci maddəsinə görə, bütün ispanlar işləməyə borcludur və əmək hüququna malikdir.

Bununla əlaqədar əmək hüququnun və işləmək vəzifəsinin vahidliyi konsepsiyasını sosialist konsepsiyası adlandıran Y.R.Tixonova ilə razılaşmaq olmaz [41, s.3]. Aydındır ki, bəzi «kapitalist» ölkələri də bu konsepsiyanı əsas götürür.

Ayrı-ayrı ölkələr, sadəcə, əmək hüququna təminat verirlər (Lüksemburq Konstitusiyasının 11-ci maddəsi, Finlandiyanın idarəetmə formasının 6-cı paraqrafı, Danimarka Konstitusiyasının 75-ci bəndi, Yunanıstan Konstitusiyasının 22-ci maddəsi və s.).

Digər dövlətlər konstitusiyalarda əməyin azadlığı və əməyə məcburetmənin qadağan edilməsi prinsipinin təsbiti ilə kifayətlənirlər (Belçika Konstitusiyasının 23-cü maddəsinin 1-ci bəndi, Avstriyanın Əsas Qanununun 18-ci maddəsi, AFR-in Əsas Qanununun 12-ci maddəsi).

Əməyin azadlığı, birincisi, hər kəsin azad surətdə seçdiyi, yaxud azad surətdə razılaşdığı əmək hüququnu, ikincisi, özünün əmək qabiliyyəti barəsində sərəncam vermək, peşə və fəaliyyət növü seçmək hüququnu ehtiva edir. Əvvəlcə insan işləyib-işləməyəcəyini seçir, sonra əgər işləməyə hazırdırsa, ona iş təqdim olunur, yaxud işə düzəlmədə yardım göstərilir. Bu, belə bir nəticəyə gəlməyə tam əsas verir ki, bazar münasibətlərinə keçidlə əlaqədar əmək hüququnun ifadəsi keyfiyyət dəyişikliklərinə uğramışdır.

İndi əmək hüququnu yalnız bərabər əmək hüququ, azad əmək hüququ kimi izah etmək olar. Hal-hazırda əmək hüququ ümumilik xassəsini itirmişdir, çünki indən belə dövlət tərəfindən ona təminat verilmir. İndi hər bir əmək qabiliyyətli vətəndaşın əmək hüququna dövlətin ona işi real surətdə təqdim etmək vəzifəsi uyğun gəlmir. “Məşğulluq haqqında» Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli Qanununun 10-cu maddəsində bəyan olunur ki, dövlət hər bir şəxs məşğulluq növünün, o cümlədən müxtəlif rejimli işin sərbəst seçilməsinə təminat verir [10, s.7]. Belə ifadə böyük şübhələr doğurur. Çünki AR Konstitusiyası vətəndaşların belə hüququnu nəzərdə tutmur. Hər bir vətəndaş işsizlikdən müdafiə hüququna malikdir ki, bu da dövlətin ona məhz özünün iddia etdiyi işi təqdim etmək vəzifəsini ifadə etmir.

Belə bir nəticəyə gəlmək olar ki, əgər ölkəmizdə bazar iqtisadiyyatının formalaşması prosesi başlanana qədər əmək hüququna əmək müqaviləsi bağlanana qədər təminat verilirdisə, indi ona artıq əmək müqaviləsi bağlandıqdan sonra işçinin ona işəgötürənlə şərtləşdirilmiş işin təqdim edilməsi hüququ şəklində təminat verilir.

Əgər müəyyən subyektiv hüquqa müvafiq hüquqi vəzifə uyğun gəlmirsə, belə hüquq azadlığa transformasiya olunur. Sxematik cəhətdən belə mülahizələri aşağıdakı kimi təsvir etmək olar: əmək hüququ-əmək azadlığı.

Eyni zamanda, biz əmək azadlığının və əmək hüququnun qarşılıqlı əlaqəsini layiqincə qiymətləndirməyə bilmərik. «Bazar iqtisadiyyatına keçildiyi müasir şəraitdə əmək azadlığı və əmək hüququ bir-birini qarşılıqlı surətdə tamamlayan və əmək qabiliyyətli vətəndaşların həyat və fəaliyyətinin hüquqi əsaslarını müəyyən edən obyektiv zəruri kateqoriyalar kimi nəzərdən keçirilməlidir» [44, s.28].

Biz V.V.Fedinin belə bir fikri ilə razılaşırıq ki, bazar iqtisadıyyatının formalaşması və inkişafı zamanı əmək hüququ vətəndaş cəmiyyəti şəraitində hüquqi dövlət ideyasına uyğundur: həm hüquqi dövlət, həm də real əmək hüququ cəmiyyətin can atmalı olduğu ali məqsədlər, etalonlardır. Öz realizəsinə məcburetməni nəzərdə tutmayan həqiqi əmək hüququ yalnız hüquqi dövlətin mövcud olduğu yerdə mümkündür [45, s.150-151].

Hələ keçən əsrin 80-ci illərinin əmək hüquq ədəbiyyatında göstərilirdi ki, «insanın əmək hüququ – bu, insanın əməyə olan tələbatını əks etdirən, həm

insanın cəmiyyətə, dövlətə tələbləri, ideyalar formasında, həm də bu tələbatların təmin edilməsi üzrə qanunvericiliklə təsbit edilmiş imkanlar formasında mövcud olan kateqoriyadır» [23, s.19].

Vətəndaşların real həyatda istifadə etdikləri hüquqların və azadlıqların məcmusu onların hüquqi vəziyyətini (statusunu) müəyyən edirlər. Dövlətdə şəxsiyyətin hüquqi vəziyyətini xarakterizə edən, vətəndaşların cəmiyyətdə köklü mənafelərini ifadə edən və bunun da nəticəsində konstitusiyada təsbit edilən hüquqlar, azadlıqlar və vəzifələr hüquq ədəbiyyatında əsas hüquqlar, azadlıqlar və vəzifələr adı ilə adlandırılır ki, bu da ümumən qəbul olunmuşdur [20, s.12]. Bu mülahizənin ötən əsrin 70-ci illərinə aid olmasına baxmayaraq, o, indi də öz aktuallığını saxlamaqdadır.

Konstitusion hüquqlar, azadlıqlar və vəzifələr ilk növbədə öz məzmununa görə əsas hüquqlar, azadlıqlar və vəzifələr hesab olunurlar, çünki onlar ən mühüm prinsipial münasibətləri tənzimləyir, cəmiyyətlə onun üzvləri arasında qarşılıqlı əlaqələri nizamlayır, dövlətlə onun vətəndaşları arasındakı münasibətlərin tənzimlənməsində başlıca rol oynamaqla yanaşı, insanın cəmiyyətdə hüquqi vəziyyətinin əsas olduğunu təsdiqləyir. Digər konstitusion hüquqlara analoji surətdə əmək hüququ aşağıdakı keyfiyyətdə çıxış edir:

1) sosial mənşəyindən, irqindən və ya etnik mənsubiyyətindən, cinsindən, təhsilindən, əmlak vəziyyətindən və digər hallardan asılı olmayaraq, bütün vətəndaşlar ümumi əmək hüququna malikdir;

2) dövlət bütün vətəndaşlara öz hüquqlarını həyata keçirmələri üçün bərabər hüquqi imkanlar verilməsinə təminat verir;

3) hüquqların realizəsinə dövlət tərəfindən təminat verilir.

Konstitusion əmək hüququ əsas hüquqların digər xassələri ilə də səciyyələndirilir. Konstitusion əmək hüququ vətəndaşların bütün əmək hüquqlarının hüquqi bazasını təşkil edir. Həmin normaların böyük əksəriyyəti cari qanunvericilik aktlarında təsbit edilmişdir. Lakin cari qanunvericilik aktları ilə müqayisədə konstitusion əmək hüququ ən yüksək hüquqi qüvvəyə malikdir. Deməli, vətəndaşların cari qanunvericilik aktlarında təsbit edilmiş bütün əmək hüquqları onların konstitusion əmək hüququna zidd ola bilməz.

Tarixi planda, eləcə də hazırda hüquq elmində konstitusion əmək hüququnun hüquqi təbiəti haqqında müxtəlif fikirlər mövcuddur. Əmək hüququ haqqında hüquq qabiliyyətinin elementi və subyektiv hüquq barəsində olduğu kimi danışılır. Bu iki əsas nöqteyi-nəzər öz məzmununa və əsaslandırılmasına görə eynilik təşkil etmirlər. Birinci halda müəlliflər əsas hüququ ümumi hüquq qabiliyyətinin [12, s.177-178; 18, s.13; 43, s.56], mülki hüquq qabiliyyətinin [27, s.89] və yaxud əmək hüquq subyektliyinin [33, s.43] elementlərinə aid edirlər.

Əmək hüququnu subyektiv hüququn keyfiyyəti olduğunu hesab edən müəlliflər təsdiq edirlər ki, vətəndaşların əmək hüququ hüquq münasibəti

xaricində mövcuddur [21, s.14]. Digər müəlliflərin isə fikrincə, əmək hüququ mütləq xarakterli münasibətlərində [28, s.63], yaxud da xüsusi, daha ümumi hüquq münasibətlərində mövcuddur [14, s.114]. Bəzi müəlliflər belə hesab edirlər ki, əmək hüququ yalnız dövlət hüququ xətti ilə və hüquq qabiliyyəti elementi üzrə – əmək və kolxoz hüququ xətti ilə subyektiv hüquqdur [16, s.111].

